XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...



# BİNƏQƏDİ

Zərifə Əliyeva-93 İnsanlara nur bəxş edən nurlu insan

səh. 2

№07 (144) | 29 aprel 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiyməti: 40 qəpik

## Prezident İlham Əliyev Binəqədi rayonunda olub



Aprelin 19-da dövlətimizin başçısı Binəqədi rayonunda inşa olunan “Azəravtoyol” ASC-nin yeni inzibati binasının və Bakı Metropoliteninin yeni - bənövşəyi xəttinin “Avtovağzal” və “Memar Əcəmi” stansiyalarının açılışında iştirak edib.

“Azəravtoyol” ASC-nin sədri Saleh Məmmədov Prezident İlham Əliyev inzibati binada yaradılan şərait barədə məlumat verib. Bildirilib ki, 1,7 hektar sahəsi olan bu ərazidə genişmiqyaslı təmir-tikinti, abadlıq-quruculuq işləri aparılıb. İnzibati binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulub, dahi rəhbərin həyatı və siyasi fəaliyyəti ilə bağlı fotolardan ibarət guşə yaradılıb.

“Azəravtoyol” ASC-nin əvvəlki inzibati binasının sahəsi bu təşkilatın və investisiya layihələri üzrə işçi qrupların səmərəli fəaliyyət göstərməsi üçün kifayət etmədiyindən, “Azərbaycan Dəmir Yolları” QSC-nin Biləcəri qəsəbəsindəki xəstəxana kompleksinin yararsız vəziyyətə düşmüş dördmərtəbəli üç korpusu bu qurumun balansına verilib. Binada müasir yeməkxana, 252 yerlik akt zalı, müxtəlif təyinatlı liftlər quraşdırılıb.

Əraziyə baxış keçirən Prezident İlham Əliyev kollektivə uğurlar arzulayıb.

...Həmin gün dövlətimizin başçısı Bakı Metropoliteninin yeni - bənövşəyi xəttinin “Avtovağzal” və “Memar Əcəmi” stansiyalarının açılışında da iştirak edib. Qeyd edək ki, Metropolitenin Bakı Beynəlxalq Avtovağzal Kompleksinə metro xəttinin çəkilməsi ilə bağlı tapşırığı Prezident İlham Əliyev 2008-ci ildə metronun “Nəsimi” stansiyasının açılışı zamanı vermişdi.

“Avtovağzal” stansiyasının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb.

Dövlətimizin başçısı “Avtovağzal” stansiyasının rəmzi açılışını bildirən lenti kəsib və burada yaradılan şəraitlə yaxından tanış olub.

Sonra Prezident İlham Əliyev qatarla “Avtovağzal” stansiyasından “Memar Əcəmi” stansiyasına gəlib. “Avtovağzal”–”Memar Əcəmi” mənzil tunellərinin və “Memar Əcəmi” stansiyasının layihə işləri dünyanın aparıcı şirkətləri tərəfində həyata keçirilib. Tunellərin inşası üçün hazırlıq işlərinə 2011-ci ilin fevralında, tikintisinə isə həmin ilin sentyabrında başlanılıb. Podratçı təşkilat tərəfindən tunellərin tikintisi ilə yanası, tunellərarası 8 təxliyyə keçidi və 2 havalandırma şaxtası inşa edilib.

Dövlət başçısına məlumat verilib ki, burada təmir-tikinti işləri yüksək keyfiyyətlə yerinə yetirilib, stansiya ən müasir tələblərə cavab verir. “Memar Əcəmi” stansiya kompleksinin ümumi uzunluğu 168,5 metrdir. Burada üç çıxış yaradılıb. Ümumi sahəsi 12 min kvadratmetrə yaxın olan stansiyada və çıxışlarda 17 eskalator quraşdırılıb. Burada, həmçinin fiziki imkanları məhdud insanlar üçün də liftlər var.

Hər iki stansiyanın inşası zamanı əsasən yerli xammaldan istifadə olunub. Şəhər əhalisi üçün mühüm əhəmiyyət daşıyan metropolitenin genişləndirilməsi, yeni stansiyaların açılması, qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər son illər ardıcıl olaraq həyata keçirilir ki, bu da metro nəqliyyatında keyfiyyətin yüksəldilməsi ilə nəticələnib.

## BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu

Aprelin 26-da Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışı olub. Azərbaycan Resoublikasının Prezidenti İlham Əliyev və dünyanın 140 ölkəsindən dəvət olunmuş qonaqlar mərasimdə iştirak ediblər.




Dövlətimizin başçısı Forumda nitq söyləyib. Belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsinin böyük şərəf olduğunu, ölkəmizin multikulturalizm dəyərlərini uğurla yaydığını qeyd edən Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının yaradılması təşəbbüsü ilə çıxış etdiklərinə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və İspaniyanın keçmiş Baş naziri Xose Luis Rodrigez Sapateroya təşəkkür edib. Dövlətimizin başçısı bildirib ki, əsrlər boyu mədəniyyətlər və dinlərin kəsişməsində yerləşən Azərbaycanda dinlər, mədəniyyətlər tarixən inkişaf edib.

Azərbaycanın bir çox beynəlxalq təşkilatlarda fəal iştirak etdiyini, 2011-ci ildə respublikamızın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildiyini deyən dövlətimizin başçısı Azərbaycanın daim müstəqil xarici siyasət yürütdüyünü, regional inkişafa töhfə verdiyini, müstəqillik illərində mühüm dövlət təsisatlarının formalaşdığını, bütün azadlıqların təmin edildiyini, siyasi və iqtisadi islahatların aparıldığını diqqətə çatdırıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev bildirib ki, erməni işğalçıları tərəfindən Xocalıda misli görünməmiş qətliam törədilib, 600-dan çox uşaq, qadın və qoca amansızlıqla qətlə yetirilib. ATƏT-in Faktaraşdırıcı Missiyasının hesabatında işğal altında olan ərazilərdə mədəni və dini abidələrin dağıdıldığı əksini tapıb.

Prezident İlham Əliyev ölkəmizin durmadan inkişaf etdiyini, son illərdə işsizliyin və yoxsulluğun azaldılması ilə bağlı ciddi tədbirlərin görüldüyünü, təhsil və səhiyyə problemlərinin uğurla həll olunduğunu, gender bərabərliyinin təmin edildiyini, ekoloji problemlərin həlli istiqamətində tədbirlər həyata keçirildiyini də xatırladıb.

Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir 2016-cı ilin Azərbaycanda “Multikulturalizm ili” elan edilməsini dünya xalqları arasında münasibətlərin möhkəmləndirilməsi yolunda mühüm addım kimi qiymətləndirib. Qeyd edib ki, hazırda zorakı ekstremizmin aradan qaldırılması, dünyada zorakılıq hallarının azaldılması qarşıda duran vacib məsələlərdən biridir və bu missiyanın həyata keçirilməsində gənclərin dəstəyindən, onların fəaliyyətindən istifadə olunmalıdır.

BMT-nin baş katibi Pan Gi Mun videomüraciətində Bakıda bu tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıq edib. Hazırda dünyanın və insanların ciddi böhranlar dövrü yaşadığını deyən baş katib ayrı-seçkiliyin və təcridolunmanın yalnız ekstremist arzuların yayılmasına xidmət etdiyini və bu problemlərin həllində bütün cəmiyyətləri birgə səy göstərməyə çağırıb. Budəfəki Forumun mövzusunun BMT-nin 2030-cu ilədək elan etdiyi məqsədlərə uyğun olduğunu deyən Pan Gi Mun diqqəti bütün münaqişələrin sülh yolu ilə həllinin vacibliyinə cəlb edib.

Tədbirdə nitq söyləyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan növbəti dəfə Bakıya gəlməkdən məmnun olduğunu deyərək, bu Forumun 2016-cı ilin “Multikulturalizm ili” elan edilən Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunub. Hazırda Sivilizasiyalar Alyansının BMT-nin ən önəmli qurumlarından birinə çevrildiyini deyən Türkiyə Prezidenti Alyansın məqsədlərinə nail olunması istiqamətində görülən işlərin hələ də yetərli olmadığını bildirib. Qeyd edib ki, dünyanın müxtəlif yerlərində baş verən qanlı toqquşmalar və terror aktları hələ də bizə çox işləməyin vacibliyini xatırladır. O, dünyada İslam dininə qarşı yönələn yanlış fikirlərin və təhdidlərin yolverilməzliyini, terror təşkilatlarını İslamla əlaqələndirməyin qətiyyən doğru olmadığını diqqətə çatdırıb.

R.T.Ərdoğan qeyd edib ki, bu təhlükəli gedişə son vermək zəruridir: “Dini və etnik səbəblərlə qarşıdurmalar nəticəsində 60 milyondan çox insanın evindən didərgin düşdüyü reallıqda yaşayırıq. Miqrantların bir qismi sulara gömülür, bir qismi isə getdikləri yerlərdə xoş qarşılanmır. İslam adına terror törədənlər ən böyük pisliyi müsəlmanlara qarşı törədirlər”. Türkiyə Prezidenti qeyd edib ki, bütün təhdidlərin qarşısı ancaq ortaq mübarizə sayəsində alına bilər və terrora qarşı qlobal ittifaq yaradılmalıdır, əks halda, terrorla uğurla mübarizə apara bilmərik.

Öz işini davam etdirən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində bir sıra mövzularda seminarlar keçiriləcək.

TƏDBİR səh. 3



2016-cı ilin birinci rübünün yekunları ilə bağlı hesabat yığıncağı

GÖRÜŞ səh. 5



Növbəti “Açıq qapı” vətəndaş forumu keçirilib

MÜSAHİBƏ səh. 6



Qəhrəmanlar taborunun ölməz komandiri

### Mehriban Əliyeva:

## “Uğurlarımıza və nailiyyətlərimizə baxdıqda, gələcəyimizə çox nikbinliklə yanaşırıq”

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forum çərçivəsində keçirilən “Sosial inteqrasiya sahəsində qabaqcıl metodlar” mövzusunda ikinci plenar iclasın açılışında Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çıxış edib.



Mehriban xanım Əliyeva forumun dialoqa, qarşılıqlı anlaşmanı gücləndirəcəyinə töhfə verəcəyinə inandığını bildirib. O deyib ki, bəzi hallarda insanların cəmiyyətlərdən təcrid olunması müşahidə edilir: “İnsanların adaptasiyası müxtəlif cəmiyyətlərdə fərqli yollar tələb edir. Bu gün mən sizinlə ölkəmizin təcrübəsini bölüşmək istəyirəm. Biz 25 illik müstəqillik dövrü keçmişik. İqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmişik. Elm və mədəniyyət sahəsində islahatlar aparılıb. Bu irəliləyiş tariximizin bu dövründə xalqımızın üzləşdiyi böyük çətinliklərə baxmayaraq, əldə edilib. SSRİ-nin süqutundan sonra ölkə böyük iqtisadi-sosial çətinliklərlə üzləşdi, torpaqlarımızın bir hissəsi işğal olundu. Ermənistanın işğalı nəticəsində 900 məntəqə, 693 məktəb, 975 bağça, 695 xəstəxana dağıdılıb, 40 mindən artıq unikal muzey materiallarını itirmişik”.

Azərbaycanın birinci xanımı BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə bağlı 4 qətnamə qəbul etdiyini xatırladıb: “Həmin dövrdə 7 milyon əhalisi olan və resursları olmayan ölkə 1 milyon qaçqın və məcburi köçkün problemini həll etməli idi. Biz ən vacib zənginliyimizi qoruyub saxladıq, bu da insan kapitalı idi. Hətta qaçqın düşərgələrində musiqi məktəbləri fəaliyyətini davam etdirirdi. Rastropoviç 1990-cı illərdə Azərbaycana səfər edir, qaçqın və məcburi köçkün uşaqlar üçün ustad dərsləri təşkil edirdi. Məktəblərdə dərs gedir, xəstəxanalar fəaliyyət göstərirdi. Bu, ən yaxşı sosial adaptasiya üsulları idi. Biz bütün çadır düşərgələrini ləğv etdik, qaçqın və məcburi köçkünlər üçün müasir qəsəbələr yaratdıq. Gənc nəsil müasir təhsilə də çıxış əldə edib. Amma bu, müvəqqəti müalicədir, çünki insan qaçqındırsa, heç bir şərait doğma yeri əvəz edə bilməz. Bu problemin həllini tapması, işğal olunmuş torpaqların azad edilməsi, insanların evlərinə qayıtması lazımdır”.

Mehriban xanım Heylər Əliyev Fondunun layihələrindən də danışıb: “Biz 2005-ci ildə məktəblərin əsaslı təmirinə başladıq və QHT, dövlət və şirkətlər arasında yaxşı əməkdaşlıq modeli yaratdıq. Nəticədə bu gün mövcud olan 5 min məktəbdən 3 mini əsaslı təmir olundu. Digər tərəfdən, Heydər Əliyev Fondubütün vətəndaşlar üçün bərabərlik imkanları gətirməyə çalışdı. Valideyn himayəsindən məhrum qalmış uşaqlar üçün binalar tikilib və onların sosial inteqrasiyasını təmin etmişik. Hazırda Azərbaycanda 570 min əlil var, onların 67 mini uşaqdır. Bu insanlar cəmiyyətə inteqrasiyada problemlə üzləşirlər. İnklüziv təhsil əlil uşaqların cəmiyyətə inteqrasiyasında çox mühümdür”.

Mehriban Əliyeva tolerantlıq və multikulturalizmin Azərbaycanda həyat tərzi olduğunu vurğulayıb: “Azərbaycanda müxtəlif dini icmalar tolerant şəkildə yaşayırlar. Ən mühüm nailiyyətlərdən biri Azərbaycan cəmiyyətində yüksək sosial tolerantlığın olmasıdır. Uğurlarımıza və nailiyyətlərimizə baxdıqda, gələcəyimizə çox nikbinliklə yanaşırıq. Tanınmış alim Albert Şteyn deyib ki, hər hansı fərdin həyatı o zaman məna daşıyır ki, başqa bir canlının həyatını mənalı etsin”.

## Böyük alim, mehriban ana...



Aprelin 28-də Binəqədi Rayon İcra Hakimiyyətində "Böyük alim, mehriban ana Zərifə xanım Əliyeva" mövzusunda məlumat saatı keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, şair, oftalmoloq, professor, Tibb Universitetinin oftalmologiya kafedrasının müdiri Paşa Qəlbinur, Aparatın şöbə müdirləri, əməkdaşları, rayon icra nümayəndələri, bələdiyyələr və YAP Binəqədi rayon təşkilatının fəal üzvləri iştirak ediblər.

Əvvəlcə son günlər cəbhənin təmas xəttində baş vermiş hadisələr zamanı şəhid olmuş hərbçilərimizin və akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə proqrama uyğun olaraq, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 21-dən 28-dək keçirdiyi görüşlər, etdiyi səfərlər, imzaladığı sərəncam və fərmanlar barədə iştirakçılara ətraflı məlumat verib.

Toplantıda çıxış edən icra başçısının müavini Vüsar İsmayılov böyük alim, mehriban ana Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti barədə danışıb. RİH başçısının müavini bildirib ki, Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün kamillik və müdriklik məktəbidir.

Sonra "Böyük alim, mehriban ana Zərifə xanım Əliyeva" mövzusunda məruzə üçün söz şair, oftalmoloq, professor Paşa Qəlbinura verilib. Natiq mövzu ətrafında çıxış edərək xatırladıb ki, Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator alimlərdəndir.

Professor deyib ki, Zərifə xanım hər zaman nursuz gözlərə işıq paylamaq, füsunkar gözəlliyə həsrət qalan insanların gözlərinə həyat eşqini qaytarmaq arzusunda olub. Zərifə xanım Əliyevanın ilk aspirantlarından olduğunu söyləyən P. Qəlbinur qeyd edib ki, hazırda Tibb Universitetinin oftalmologiya kafedrası əməkdaşlarının əksəriyyəti Zərifə xanımın yetirmələridir. Akademik Zərifə Əliyevanın bir çox göz xəstəliklərinin diaqnostikası və müalicəsində misilsiz xidmətləri olduğunu da diqqətə çatdıran professor deyib: "Xüsusilə, traxoma infeksion xəstəliyinin müalicəsində və bu xəstəliyin Azərbaycanda yayılmasının qarşısının alınmasında böyük rolu olub. Zərifə Əliyeva təkcə alim-oftalmoloq kimi yox, həmçinin böyük ictimai və tibb xadimi kimi tanınıb. O, ölkəmizdə çoxsaylı oftalmoloji tədbirlərin keçirilməsinin təşəbbüskarı olub".

Tədbir iştirakçıların müzakirələri ilə davam edib.

# İnsanlara nur bəxş edən nurlu insan

Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

1942-ci ildə orta məktəbi bitirdikdən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə. Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə potologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.



İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində – H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafıə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologiyi" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-cı ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə. Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülmüşdür. Qeyd olunmalıdır ki, professor Z.Ə. Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuş, Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

Aprelin 28-də XX əsr Azərbaycan tarixinin görkəmli simalarından sayılan Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümü tamam olur.

Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun elmi fəaliyyəti çox zəngin və əhatəli olmuşdur. İstedadlı alim kimi oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb və dəyərli elmi-tədqiqat işləri yazıb.

Özünün zəngin tibb təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyeva həkimin xəstə ilə necə davranmağına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin "sözlə" müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmannasızlıq təşkil edir.

Professor N.Şulpina Zərifə xanım Əliyevanı belə xarakterizə edib: "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik. Zərifə xanımın bədii duyumu, bədii istedadı bənzərsiz idi. Zərifə xanım necə böyük məharətlə ifa edir, nəğmələr oxuyurdu. Onun incə barmaqları sürətlə pianonun dilləri üzərində gəzir, toplaşdığımız otağı bəzən gur, bəzən də həzin musiqi sədaları bürüyürdü".

Zərifə xanım Əliyeva az yaşadı. O, istedadı və həyat enerjisi ilə gələcəkdə çox işlər görə bilərdi. Ömrünün son anına kimi o, həyatla, gələcək planlarla yaşayırdı. Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

# Binəqədi rayonunda görkəmli oftalmoloq-alim Zərifə Əliyevanın xatirəsi yad edilib





Aprelin 27-də Binəqədi Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, Azərbaycan tibb elminə misilsiz töhfələr bəxş etmiş akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Mərasimdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, RİH başçısının müavini Vüsar İsmayılov, Milli Məclisin deputatları - Madər Musayev, Kəmaləddin Qafarov, Milli Oftalmologiya Mərkəzinin baş həkim əvəzi Aytən Sultanova, Zərifə Əliyevanın adını daşıyan liseyin direktoru Mehriban Vəliyeva, Binəqədi RİH başçısı Aparatının şöbə müdirləri, İctimai Şuranın sədri Aslan Mehdiyev, YAP Binəqədi rayon təşkilatı Qadınlar Şurasının İdarə Heyətinin üzvləri, idarə, müəssisə və icra strukturlarının rəhbərləri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Zərifə xanımın adını daşıyan parkda görkəmli alimin abidəsi önünə tər çiçəklər düzüb, xatirəsinə dərin ehtiramlarını bildiriblər. Mərasimdə çıxış edənlər unudulmaz şəxsiyyətin mənalı və şərəfli həyat yolu barədə xatirələrini bölüşdürüblər. Aytən Sultanova Zərifə xanım Əliyevanı peşəkar həkim olmaqla yanaşı, həm də fəal ictimai xadim kimi xarakterizə edib. O, həkim peşəsini vicdanla yerinə yetirən alimin insanların sağlamlığının qorunmasında, bir sıra ağır xəstəliklərin qarşısının alınmasında göstərdiyi xidmətlərə toxunmaqla yanaşı, onun hər şeydən əvvəl humanist bir insan olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. XX əsr Azərbaycan elminin böyük simalarından olan Zərifə Əliyevanın həm də öz vəzifəsini şərəflə yerinə yetirən ana olduğunu bildirən Kəmaləddin Qafarov vurğulayıb ki, oftalmologiya elminin inkişafında Zərifə xanım Əliyevanın müstəsna xidmətləri var. Bütün həyatı boyu insanların sağlamlığı üçün çalışan Zərifə xanım Əliyevanın tibb elmində qazandığı uğurlar heç kimə sirr deyil. Elm sahəsində çox böyük əmək sərf edən Zərifə xanımın insanlara olan humanizm duyğusu seçdiyi peşəsində xüsusilə özünü göstərirdi.

Mehriban Vəliyeva bildirib ki, Zərifə Əliyeva yaddaşlarda görkəmli alim, qayğıkeş insan, sədaqətli ömür-gün yoldaşı, gözəl ana kimi qalıb: "Görkəmli oftalmoloq, tanınmış alim Zərifə xanım Əliyeva sadəliyi, xeyirxahlığı, mehribanlığı ilə insanlara özünü sevdirməyi bacarıb". RİH başçısının birinci müavini İlqar Süleymanov Zərifə xanım Əliyevanın insanlara örnək olacaq şərəfli ömür yolundan danışıb. O, Zərifə xanımın bütün insani keyfiyyətləri ilə əsl Azərbaycan qadınının ideal obrazını yaratdığını, tanınmış həkim, novator alim, eyni zamanda qayğıkeş ana və sədaqətli ömür-gün yoldaşı kimi daim qəlblərdə yaşadığını diqqətə çatdırıb. Qeyd olunub ki, görkəmli akademik respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə dünya miqyasında böyük şöhrət qazanıb. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti yeni həkim nəslinin yetişməsinə, Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərib.

Tədbirin sonunda qonaqlar Zərifə Əliyeva adına parkda təşkil edilən foto-sərgi ilə tanış olublar. Xatırladaq ki, Zərifə xanım Əliyevanın anım günü ilə bağlı aprelin 15-də onun adını daşıyan parkda Binəqədi rayonunun ictimai-siyasi və mədəni həyatında fəal rol oynayan xanımların iştirak ilə tədbir keçirilib. İştirakçılar tanınmış alimin xatirəsinə ucaldılmış abidənin önünə əklil və gül dəstələri qoyaraq, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu,**
**Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** Qiyməti: **40 qəpik**

# 2016-cı ilin birinci rübünün yekunları ilə bağlı hesabat yığıncağı

Aprelin 15-də Binəqədi rayonunda 2016-cı ilin birinci rübü üzrə sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavinləri, Aparatın məsul işçiləri, idarə, müəssisə, hüquq-mühafizə orqanlarının rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. İclas son günlər cəbhə xəttində baş vermiş döyüşlərdə həlak olmuş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanılmışdır.

Tədbirdə çıxış edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Nazirlər Kabinetinin 2016-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısının qarşıya qoyduğu vəzifələrdən söz açmışdır. Bu ilin ilk üç ayı ərzində rayonun sosial-iqtisadi və mədəni-ictimai həyatında əldə olunan uğurlu nəticələrdən, aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən, həyata keçirilən infrastruktur layihələrdən danışan RİH başçısı bildirmişdir ki, ölkədə geniş vüsət alan sosial-iqtisadi inkişaf, aparılan quruculuq və abadlıq işləri Binəqədi rayonunda da yüksək templə davam etdirilmişdir.

Sonra söz rayon icra hakimiyyəti başçısının müavini Vüsar İsmayılova verilmişdir. Bildirilmişdir ki, respublikanın rayon və şəhərlərinin sosial-iqtisadi inkişafı üçün indiki dövrdə həyata keçirilən tədbirlər və gələcək dövrlərə hesablanmış, eyni zamanda bu kontekstdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hökumətin qarşısında qoyduğu vəzifələrin davamlı və uğurlu icrası artıq son illər ərzində tendensiya halına düşərək müsbət nəticələrini verməkdədir: "Möhtərəm Prezident xüsusilə qeyd etmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim əsas vəzifəmizdir. Azərbaycan həm siyasi, həm iqtisadi və bütün başqa sahələrdə gücləndikcə, əlbəttə ki, bu münaqişənin həlli daha da yaxın olacaqdır. Biz inkişaf dinamikamızı daha da sürətləndirməliyik və Azərbaycanda dayanıqlı inkişaf davam etməlidir. Son illər ərzində iqtisadi və siyasi sahələrdə əldə edilən uğurlar onu göstərir ki, biz düzgün yoldayıq. Hər zaman olduğu kimi, birinci rübdə də bizim çox fəal xarici siyasətimiz olmuşdur. Ancaq hesab edirəm ki, biz birinci rübdə daha da fəal işləmişik.

Bildiyiniz kimi, son günlər cəbhə xəttində baş vermiş münaqişə zəminində xalqımız şəhidlər vermişdir. Həmçinin Binəqədi rayonu olaraq rayon sakinləri Bağırov Emin İmran oğlu və Qurbanlı Fəxrəddin Seyfəddin oğlu, Nərimanov və Yasamal rayon Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətindən hərbi xidmətə çağırılmış, Binəqədi rayonunda anadan olmuş Mirzəyev Mahir Sabir oğlu və Hacıağayev Cabbarxan İlham oğlu vətən uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşlar. Qeyd etmək istərdim ki, şəhidlərin rayonumuzdakı dəfn və yas mərasimləri böyük insan kütləsi və izdihamı ilə müşahidə olunmuşdur".

RİH başçısının müavini bildirmişdir ki, cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır, ancaq bu böhrandan ən az itkilərlə çıxan ölkələrdən biridir. Neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq, bu il Azərbaycanda maaşlar və pensiyalarda 10 faiz artım olmuşdur. Ötən dövr ərzində Azərbaycan iqtisadiyyatının çoxşaxəli inkişafını təmin etmək məqsədilə qeyri-neft sektoru inkişaf etmiş, ölkə iqtisadiyyatının neft-qaz amilindən asılılığı azalmışdır, qeyri-neft sahəsi 5 faizdən çox artmışdır.

V.İsmayılov xatırlatmışdır ki, Binəqədi rayonunun sosial-iqtisadi həyatında 2016-cı ilin yanvar-mart ayları ərzində görülən işlərin yekunu olaraq, bir sıra müsbət nəticələr əldə edilmişdir. Dövr ərzində sənaye sahəsində 2016-cı 34 milyon 470 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. Sənaye müəssisələrində 5597 nəfər işləmişdir, orta aylıq əməkhaqqı 490 manat olmuşdur: "Qeyd etmək lazımdır ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə nəqliyyat sektorunda 7%, rabitə sektorunda 0,5% artım müşahidə olunmuşdur. İstehlak bazarında da müsbət irəliləyişlər əldə edilmişdir. Hesabat dövründə istehlak bazarı dinamik inkişaf etməkdə davam etmiş və pərakəndə ticarət şəbəkəsindən rayon əhalisinə 263 milyon 172 min manatlıq istehlak malları satılmışdır.



Tikinti sektorunda bütün maliyyə mənbələri hesabına 3 milyon 907 min manat əsas fondlar istifadəyə verilmişdir. Fəhlə və qulluqçuların orta aylıq əməkhaqqı 345,6 manat təşkil etmişdir. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 94 milyon 952 min manat olmuşdur. Rüb ərzində əhaliyə göstərilən xidmətlərin 20,4%-i dövlət müəssisələrinin payına düşmüşdür.

Əhalinin məşğulluğu barədə məlumatlar və qeyri-məşğul əhalinin ödənişli əsaslarla ictimai faydalı əməyə cəlb edilməsi ilə əlaqədar Binəqədi Rayon Məşğulluq Mərkəzi tərəfindən işə ehtiyacı olan vətəndaşların qeydiyyata götürülərək, aidiyyəti vakant iş yerləri ilə təmin olunması prosesi davam etmiş və görülən işlərlə əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyası tərəfindən müəyyən edilmiş formaya uyğun olaraq, məlumatlar mütəmadi qaydada təqdim olunmuşdur". Çıxışda vurğulanmışdır ki, Binəqədi rayonu ərazisində fevral ayının 1-dən mart ayının 31-dək 1290 yeni iş yeri açılmış, 870 şəxs işlə təmin olunmuşdur. O cümlədən rayon ərazisində abadlıq, mənzil fondunun əsaslı təmiri, ağac əkimi və digər ictimai işlərə cəlb olunmaq üçün 711 nəfər vətəndaşın işlə təmin edilməsi nəzərdə tutulmuşdur. Artıq bu sahə üzrə 447 nəfər vətəndaş işlə təmin olunmuşdur.

2016-cı ilin I rübü ərzində 34545 pensiyaçıya xidmət göstərilmişdir. Ödənilən pensiya məbləği 22 milyon manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,1 milyon manat çoxdur. Rayon üzrə orta pensiya məbləği 217,5 manat təşkil etmişdir.

Cari il aprelin1-i vəziyyətinə Binəqədi rayonunda daimi qeydiyyatda olan əhalinin sayı 261 min 200 nəfər olmuşdur. Ötən dövr ərzində 985 nəfərin doğumu və 337 nəfərin ölümü qeydə alınmış, təbii artım isə 648 nəfər olmuşdur. Cari ilin yanvar-mart aylarında 305 nikah və 126 boşanma halları qeydə alınmışdır. Binəqədi rayonu ərazisində respublikanın işğal olunmuş bölgələrindən olan 13554 ailə - 53663nəfər məcburi köçkün faktiki məskunlaşmışdır: "Məlum olduğu kimi, ölkə başçısının təşəbbüsü ilə 17 yanvar 2014-cü il tarixində yeni - "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"ı təsdiq edilmişdir. Binəqədi rayonuna aid 40 tədbir nəzərdə tutulmuşdur. 2016-cı ilin birinci rübü ərzində Dövlət Proqramında təsbit olunan mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi bəndinin icrası ilə əlaqədar Xocəsən qəsəbəsi ərazisində yerləşən yeni Mədəniyyət evinin tikintisinə maliyyə vəsaiti ayrılmış və hazırda tikinti işləri davam edir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illər Binəqədi rayonu ərazisində həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işlərinin tərkib hissəsi kimi, rayonun mikrorayonlarında və qəsəbələrində yeni parklar, xiyabanlar, yaşayış məntəqələrində nümunəvi məhəllələr salınmış, park və məhəllələrdə çoxsaylı müasir oturacaqlar, uşaq idman-oyuncaq elementləri quraşdırılmış, yol kənarlarında və nümunəvi məhəllələrdə milli ornamentləri özündə əks etdirən landşaft memarlığına uyğun çəmən örtüyü salınmış, dekorativ və ekzotik ağac növləri əkilmişdir. Rayon ərazisində mərhələli və planlı şəkildə həyata keçirilən abadlıq-quruculuq işləri çərçivəsində 2016-cı ilin I rübü ərzində qəsəbələrarası və məhəlldaxili yollarda, mərkəzi prospektlərdə, yaşayış binalarının fasad və dam örtüklərində, park və meydanlarda, həmçinin digər infrastruktur sahələrində yenidənqurma və əsaslı təmir işləri aparılmış, bu istiqamətdə işlər bu gün də davam etdirilməkdədir".

Bildirilmişdir ki, rayon



ərazisində mövcud olan ümumilikdə 492 çoxmənzilli yaşayış binasında ilin I rübündə 1214 m2 yumşaq dam örtüyü cari təmir edilmiş, 27351 m2 çardaqlı dam örtüyü, 1297 giriş kənar əşyalardan təmizlənmiş, 115 girişdə pəncərə təmir edilmiş, binaların zirzəmilərində 615 p/m su, 416 p/m kanalizasiya xətti dəyişdirilmiş, mikrorayonlar və Biləcəri qəsəbəsi ərazisində abad həyətlərdə təmizlik və cari təmir işləri aparılmış, mərkəzi küçələrdə bütün işıq dirəkləri yuyulmuş, 724 liftin kabinəsində profilaktik təmizlik işləri aparılmışdır. Abad məhəllələrdə olan idman uşaq və əyləncə qurğuları təmizlənmiş və cari təmir edilmişdir. Rayon ərazisində yol təsərrüfatının yaxşılaşdırılması məqsədilə qəsəbələrdə və digər ərazilərdə birinci növbədə asfaltlanmasına ciddi ehtiyac olan küçə və yollar müəyyənləşdirilərək aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmışdır. Mənzil fondunun yaxşılaşdırılması məqsədilə rüb ərzində 115 mənzilin tüstü və ventilyasiya kanallarına baxış keçirilmiş, 629 mənzildə tutulmuş tüstü kanalları təmizlənmişdir.

Həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində hesabat dövründə məişət tullantılarının yığılması və daşınmasında mövcud olan bir sıra problemlər öz həllini tapmış, bu sahəyə xüsusi diqqət ayrılmışdır. Rüb ərzində məişət tullantıları konteynerləri cari təmir olunmuş və rənglənmişdir. Xaric olan bərk məişət tullantılarının müvəqqəti toplanması üçün yaşayış məskənlərində 137 konteyneraltı meydança, 375 uyğunlaşdırılmış sahələrdə (yaşayış binalarının ətrafında, məhəllələrdə, küçələrin kənarında və s.) 2078 ədəd konteynerdən, məişət tullantılarının mütəmadi daşınması üçün ümumilikdə 38 ədəd xüsusi təyinatlı maşından istifadə olunur.

Yaz-yay mövsümünə hazırlıqla əlaqədar aidiyyəti qurumlar tərəfindən rayon icra hakimiyyəti ilə koordinasiyalı şəkildə küçə ticarətinin qarşısının alınması, qeyri-qanuni ət kəsiminin aradan qaldırılması, sərinləşdirici içkilərin və mövsümi kənd təsərrüfatı məhsullarının satışında gigiyena qaydalarına riayət olunması istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Mövsümə hazırlıqla əlaqədar rayon ərazisində yerləşən yeyinti sənayesi obyektlərinin su və kanalizasiya xətlərinə, texniki və soyuducu avadanlıqlara baxış keçirilmişdir. Sənaye müəssisələrində də mövsümə hazırlıqla bağlı sağlamlaşdırıcı tədbirlər görülmüşdür. Müəssisələrdən 301 nümunə götürülmüş, 219 su nümunəsindən 5-də qeyri-kafi nəticə alınmışdır. 36 ərzaq nümunəsində müsbət nəticə qeydə alınmışdır. Aşkar olunmuş sanitar-gigiyenik nöqsanlara görə 24 cərimə sanksiyası tətbiq olunmuşdur. 2016-cı ilin yaz-yay mövsümü ilə əlaqədar rayon ərazisində epidemioloji xəstəliklərin artması hallarının qarşısının alınmasında rayonda fəaliyyət göstərən ticarət, iaşə, kommunal, məişət obyektlərinin, mədəni-kütləvi istirahət yerlərinin sanitariya təmizliyində, içməli su təchizatında çirkab suların kənarlaşdırılmasında iri həcmli işlərin görülməsi mühüm rol oynamışdır. Görülən tədbirlərin nəticəsi olaraq, ötən dövrlərlə müqayisədə cari ilin ilk 3 ayı ərzində rayon ərazisində təhlükəli epidemioloji xəstəliklər qeydə alınmamış, bir sıra yoluxucu xəstəliklərdə isə azalma müşahidə edilmişdir. Müəssisə rəhbərlərinə istifadədə olan ərazilərin və xidmət sahələrinin sanitar normalara uyğun saxlanılması, ehtiyat su çənlərinin yuyulması və dezinfeksiya işlərinin aparılması istiqamətində göstərişlər verilmiş, axar su xətlərində və ehtiyat su çənlərində keyfiyyət dərəcəsini yoxlamaq məqsədilə nümunələr götürülərək bakterioloji və kimyəvi müayinəyə göndərilmişdir. Rayon sakinlərinin sağlamlığının, ərazinin sanitar-epidemioloji şəraitinin yaxşılaşdırılması və ətraf mühitin qorunması, ekoloji təhlükəsizliyin təmin edilməsi sahələrində profilaktik tədbirlər həyata keçirilməsinə baxmayaraq, bir sıra nöqsanlar da qeydə alınmış və qanunamüvafiq tədbirlər görülmüşdür.

Yaz-yay mövsümü ilə əlaqədar ərazidə mövsümi budama işlərinə, quru ağacların təmizlənməsinə, çoxillik güllərə qulluq göstərilməsinə, əkilən güllərin alağının təmizlənməsinə, suvarılmasına, parkların quru ot və alaqlardan təmizlənməsinə, çəmənliklərə gübrə verilməsi işlərinə başlanmışdır. Rayon ərazisində əlavə olaraq yeni ağac və kolların əkilməsi, ştilxanada gül toxumlarının əkilməsi və sahələrə köçürülməsi, ərazidə mövcud olan çəmənlik və ağacların suvarılması, qurumuş ağacların vaxtında götürülməsi, çəmənliklərin biçilməsi, ağac və kollarda yaşıl budamanın aparılması işlərinin davamlı olaraq həyata keçirilməsi nəzərdə tutlmuşdur.

Məruzəçi bildirmişdir ki, Nazirlər Kabinetinin "Bakı şəhəri Binəqədi və Qaradağ rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə" 8 saylı 22 yanvar 2016-cı il tarixli Qərarı ilə "Pilot layihə" formatında beş il müddətinə Binəqədi Rayon İcra Hakimiyyətinə mülki, mənzil, şəhərsalma və tikinti qanunvericiliklərinin tələblərinə əməl etməklə, şəhərin ümumi görünüşünə xələl gətirən, qəzalı vəziyyətdə olan və mövcud şəhərsalma normalarına cavab verməyən binaların, sosial və digər təyinatlı qeyri-yaşayış obyektlərinin sökülməsini və yenidən qurulmasını, dövlət mülkiyyətində olan torpaqların daimi istifadəyə və icarəyə verilməsini, mənzil fondunun yenilənməsi və görülmüş işlər barədə Nazirlər Kabinetinə məlumat verilməsi tapşırılmışdır. Bu məqsədlə Binəqədi rayonu üzrə 1247 ailə yaşayan 49 çoxməzilli yaşayış binası, həmçinin Biləcəri qəsəbəsinin ərazisində yeraltı qaz sızması aşkar olunmuş zonadakı 166 fərdi yaşayış evi müəyyənləşdirilmişdir. Qarşıya qoyulmuş vəzifələrin icrasının təmin edilməsi, görüləcək işlərin davamlılığının təşkili, cari və perspektiv iş planının müəyyən olunması məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı müvafiq sərəncam imzalanmışdır. Sərəncamla Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavininin sədrliyi ilə yaradılan Komissiyanın tərkibinə Nazirlər Kabinetinin Qərarının tələblərinə uyğun olaraq yaşayış binalarının, sosial və digər təyinatlı qeyri-yaşayış obyektlərinin tikilməsi, yenidən qurulması, bununla bağlı layihələrin təsdiq edilməsi, habelə tikinti obyektlərinin istismarına icazənin verilməsi ilə bağlı vətəndaş müraciətlərinə baxılması, qanunsuz zəbt edilmiş və ya bələdiyyələr tərəfindən onlara aidiyyəti olmayan dövlət mülkiyyətli torpaq sahələri müəyyən edilərək, onların daimi istifadəyə və ya icarəyə verilməsi ilə bağlı tədbirlərin görülməsi, həmçinin Nazirlər Kabinetinin Qərarı ilə "Pilot layihə" formatında görüləcək işlər barədə Nazirlər Kabinetinə məlumat verilməsinin təmin edilməsi tapşırıqları verilmişdir. Binəqədi rayonu ərazisində 36 tam qəzalı vəziyyətdə olan bina vardır ki, bu binalarda 960 ailə yaşayır. Layihə çərçivəsində 36 binadan, 3 yarımçıq tikilidən və 166 fərdi yaşayış evlərindən ümumilikdə 1612 ailənin köçürülməsi və görülmüş işlər zamanı sahibkarlıq subyektləri tərəfindən 2000-dən artıq yeni iş yerlərinin açılması nəzərdə tutulmuşdur.

Qeyd olunan məsələlərin icrası ilə əlaqədar artıq Binəqədi rayonu, Azadlıq prospekti ilə Z.Qəmbərov küçəsinin kəsişməsində yerləşən qəzalı vəziyyətdə olan yaşayış binalarında yaşayan sakinlərə hər ay haqqı ödənilməklə kirayəyə köçürülməsi və gələcəkdə tam təmirli mənzillə təmin olunması şərti ilə sökülməsini və həmin binaların yerində yeni çoxmənzilli yaşayış binalarının tikintisi işlərinin aparılması ilə bağlı rayon icra hakimiyyəti başçısının "Çoxmənzilli yaşayış binalarının tikintisinin layihələndirilməsinə dair" sərəncamı imzalanmışdır və bu istiqamətdə işlər davam edir. Hazırda ilkin mərhələ olaraq Binəqədi rayonu, Azadlıq və Z.Qəmbərov küçələrinin kəsişməsində yerləşən 3 mərtəbəli 60 mənzilli 3 yaşayış binasının sökün-tüsü nəzərdə tutulmuşdur ki, bu binalarda 183 nəfər sakin yaşayır. Sökülən binaların yerində 648 mənzilli 7 girişli 16, 17, 18 mərtəbəli 3 pilləvari binanın tikintisi planlaşdırılır və görülmüş işlər nəticəsində ilkin mərhələdə 50, il ərzində isə 200 yeni iş yerinin açılması nəzərdə tutulmuşdur. Hazırda müəyyən olunmuş şirkətin müraciəti ilə əlaqədar zəruri texniki hazırlıq və layihələndirmə, həmçinin sakinlərlə təbliğat işləri aparılmaqdadır. Bundan əlavə, ilin birinci rübü ərzində Sulutəpə qəsəbəsində, Binəqədi-Balaxanı yolunda, Biləcəri qəsəbəsində yanğından mühafizə bölmələri, Azərbaycan Dövlət Teleqraf Agentliyinin inzibati binası, Dövlət qulluğu məsələləri üzrə komissiyanın inzibati binası, Xocəsən qəsəbəsində yeni metrostansiya, Ayna Sultanova Parkı, Binəqədi Rayon Məhkəməsinin inzibati binası, Türkdilli dövlətlərin Parlament Assambleyasının Katibliyi üçün inzibati bina, Rəsulzadə qəsəbəsində yeni metrostansiya deposunun tikinti işləri və Bakı-Sumqayıt yolunun genişləndirilməsi, təmiri və bərpa işləri davam etdirilir. Dövlət Proqramının icrası ilə əlaqədar Gənclər evinin tikintisi tamamlanmışdır.

*Ardı səh. 4-də*

# “ASAN könüllüləri”nin Binəqədi RİH-də təcrübə müddəti başa çatıb

Aprelin 26-da “ASAN-Master 2” layihəsində iştirak edən “ASAN Könüllüləri Gənclər Təşkilatı” üzvlərinin Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçmələrinin başa çatması münasibətilə tədbir keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev, “Asan Xidmət Mərkəzi” İnsan resursları və təlim şöbəsinin müdir müavini Cahangir Hacıyev, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdirləri, “ASAN Könüllüləri Gənclər Təşkilatı” İctimai Birliyinin sədri Fərid Sadıqlı və bir qrup üzvü, eləcə də Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçən ASAN könüllüləri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Binəqədi rayon İcra Hakimiyyətinin inzibati binasında yerləşən ulu öndər Heydər Əliyevin büstünü ziyarət edərək, büstün önünə gül-çiçək dəstələri düzüblər.

Tədbir torpaq uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb. ASAN Könüllüsü Kənan Qubadzadə “ASAN könüllüləri”nin fəaliyyəti barədə məlumat verib, Binəqədi Rayon İcra Hakimiyyətində keçdikləri üç aylıq təcrübənin hesabatını təqdim edib.

“ASAN könüllüləri”ndən Vüsalə Quliyeva, Günay Qarayeva, Hüseyn Quluzadə və Ülfət Qüdrətli çıxış edərək Binəqədi Rayon İcra Hakimiyyətində keçdikləri iş təcrübəsindən danışıblar. Onlar ötən üç ay ərzində fərqli şöbələrdə təcrübə keçən “ASAN könüllüləri”nə göstərilən diqqət və qayğıkeş münasibətdən bəhs ediblər. İştirakçılar bütün bunlara görə, rayon İcra Hakimiyyətinin rəhbərliyinə və kollektivə minnətdarlıqlarını bildiriblər.



Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev ASAN xidmət barədə məlumat verərək bu xidmətin yaradılması ilə məmur-vətəndaş münasibətlərinə böyük töhfə verildiyini diqqətə çatdırıb. Prezident İlham Əliyevin diqqət və təşəbbüsü ilə yaradılan bu xidmətin artıq dünyada Azərbaycanın brendi kimi tanındığına toxunan Ü.Mehdiyev ölkədə uğurlu gənclər siyasətindən söhbət açıb. Məhz ölkə rəhbərliyinin yaratdığı imkanlar nəticəsində bu sahədə də gənclərə böyük önəm verildiyi vurğulanıb.

Sonra çıxış edən “ASAN Könüllüləri Gənclər Təşkilatı” İctimai Birliyinin sədri Fərid Sadıqlı “ASAN – Master 2” layihəsində iştirak edən “ASAN Könüllüləri Gənclər Təşkilatı” İctimai Birliyi üzvlərinin Binəqədi Rayon İcra Hakimiyyətində keçdikləri təcrübənin onların gələcək karyera həyatları üçün müsbət rolundan danışaraq bu təcrübənin onlara öz töhfəsini verəcəyini bildirib.



Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini İlqar Süleymanov çıxışında Azərbaycanın çox sahələr üzrə böyük uğurlara imza atmasına diqqət çəkərək, bunun təkcə ölkəmizdə deyil, həm də beynəlxalq aləmdə Azərbaycana müsbət imic qazandırdığını deyib. İ.Süleymanov vurğulayıb ki, ölkə Prezidenti cənab İlham Əliyevin diqqəti və nəzarəti ilə fəaliyyət göstərən ASAN Xidmətin sözün həqiqi mənasında vətəndaşların işlərini asanlaşdırması bu qurumun nüfuzunu günbəgün artırmış və gənclərdə də bu sahəyə maraq oyatmışdır, onlar hətta könüllü kimi fəaliyyət göstərməyə başlamışlar. Çıxışda bildirilib ki, ilk öncə dövlətin yaratdığı imkan və şərait sayəsində təhsil alan gənc ictimai faydalı işlə məşğul olaraq təcrübə keçdiyi quruma öz töhfəsini verir, digər tərəfdən təcrübə keçdiyi dövlət qurumunda iş həyatı ilə tanış olur, məsuliyyət, işdə daxili nizam-intizam qaydaları, subordinasiya kimi məsələləri öyrənir və bütün bunlara özləri də riayət edirlər.

Daha sonra “ASAN könüllüləri”nə sertifikatlar təqdim olunub. Tədbir çay süfrəsi ətrafında səmimi söhbətlə davam edib.

# 2016-cı ilin birinci rübünün yekunları ilə bağlı hesabat yığıncağı

*Əvvəli səh. 3-də*

Çıxışda vurğulanmışdır ki, ölkə başçısının ən mühüm tapşırıqlarından biri məmur-vətəndaş münasibətlərinin tənzimlənməsi, bu məsələyə xüsusi diqqətin ayrılmasıdır. Bu tapşırığa uyğun olaraq, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının mütəmadi olaraq vətəndaşlarla birbaşa, o cümlədən yerlərdə səyyar qəbulları təşkil edilmiş, vətəndaşların müraciətləri, irad və təklifləri diqqətlə öyrənilərək onların icrası baxımından “Tədbirlər Planı” təsdiq olunmuş və aidiyyəti qurumlara göndərilərək tədbirlərin icrası nəzarətdə saxlanılmışdır. Rüb ərzində rayon icra hakimiyyəti başçısının ümumilikdə 6 görüşü keçirilmişdir. Həmin görüşlərdə RİH başçısı Aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının və xidmət sahələrinin rəhbərlərinin iştirakı təmin edilmişdir. Keçirilən görüşlərdə ümumilikdə 592 nəfər vətəndaş iştirak etmiş, 55 məsələ qaldırılmışdır.

Vətəndaş məmnunluğunun təmini, hüquq, azadlıq və qanuni maraqlarının müdafiəsi, korrupsiyaya qarşı mübarizə, ictimai etimadın formalaşdırılması dövrün zərurətinə çevrilmişdir. Bu istiqamətdə vətəndaş müraciətlərinin cavablandırılması, sakinlərin rifah və məmnunluq səviyyəsinin təmin olunması qarşıda duran ən mühüm vəzifələrdəndir. Cari ilin 1-ci rübü ərzində vətəndaşlardan ümumilikdə 834 müraciət daxil olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 124 vahid və ya 12,9% azdır.

Hesabat dövründə Binəqədi rayonundan daxil olmuş vətəndaş müraciətlərindən 697-si ərizə və 137-si şikayət olmuşdur. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına 2016-cı ilin yanvar-mart aylarında daxil olmuş vətəndaş müraciətlərinə baxılmasının mövzular və növlər üzrə bölgüsü barədə məlumatlar təhlil edilərək müəyyən olunmuşdur ki, müraciətlərin əsasən 26,2%-i şəhərsalma və tikinti məsələləri,18,3%-i mənzil məsələləri, qalan müraciətlər – 13,3%-i əmək və əhalinin sosial müdafiəsi məsələləri, 4%-i su-kanalizasiya, qaz, enerji və istilik problemləri ilə bağlı, 0,2%-i nəqliyyat, 3%-i qaçqınlar və məcburi köçkünlərlə bağlı, 1,6%-i ailə-məişət məsələləri, 1%-i qəbul məsələləri, 16,2%-i şəhər, rayon icra hakimiyyətlərinin və bələdiyyələrin fəaliyyəti ilə əlaqədar, 1,7%-i vəzifəli şəxslərin hərəkət və hərəkətsizliyi, 14,5%-i digər mövzular ilə əlaqədar olmuşdur. İlin yanvar-mart ayları ərzində Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında 998 vətəndaş, RİH başçısı tərəfindən isə 79 vətəndaş qəbul edilmişdir.

Aparatın 2016-cı il üçün təsdiq edilmiş İş planına uyğun olaraq, hesabat dövründə 6 Şura iclası keçirilmiş və 9 məsələ müzakirəyə çıxarılmışdır. Müzakirə olunan məsələlərlə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən verilmiş tapşırıqların icrası məqsədilə, o cümlədən mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülür.

Hesabat dövründə milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanması, inkişaf və təbliğ etdirilməsi, tarixi hadisələrin, əlamətdar günlərin qeyd olunması, rayonda fəaliyyət göstərən ictimai təşkilatlar, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, siyasi partiyalar və dini qurumlarla qarşılıqlı münasibətlərin qurulması, onların fəaliyyətinin koordinasiyası prioritet istiqamətlərdən olmuşdur.

Bu ilin fevralın 25-də “Xocalı faciəsi”nin 24-cü ildönümü ilə əlaqədar Binəqədi qəsəbəsi Mərkəzi Mədəniyyət evində tədbir keçirilmişdir. Fevralın 26-da Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının kollektivi, rayonun ictimai həyatında iştirak edən fəal gənclər, rayon ictimaiyyəti Xətai rayonunda Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etmişlər. Martın 5-də Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının yaradılmasının 23 illiyi qeyd olunmuş, martın 10-da isə Binəqədi rayonunda “Dövlət-din münasibətlərinin tənzimlənməsində dini icmaların rolu” mövzusunda tədbir keçirilmişdir. Həmin ayın 16-da Azərbaycan Respublikasının Prezidentinin tapşırığına əsasən, “Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində binəqədili məktəblilərinin Naxçıvan Muxtar Respublikasına yola salınması münasibətilə tədbir keçirilmişdir. Məktəblilər 4 gün ərzində Naxçıvan, Ordubad şəhərləri, Şahbuz, Kəngərli rayonlarının tarixi, maddi-mədəniyyət nümunələri, turizm mərkəzləri və başqa gəzməli-görməli yerləri ilə yaxından tanış olmuşlar. Yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində, dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə çərçivəsində Naxçıvana ekskursiya binəqədili məktəblilər tərəfindən böyük sevinc və coşqu ilə qarşılanmışdır.



Prezident İlham Əliyevin tapşırıqlarından irəli gələn vəzifələrin icrası məqsədilə əhalinin tibbi müayinəsi rayonun 8 tibb müəssisəsi tərəfindən həyata keçirilmiş və bütün səhiyyə ocaqlarında bunun üçün hərtərəfli şərait yaradılmış və fevral-mart ayları ərzində rayon əhalisindən 106.655 nəfəri tibbi müayinədən keçmişdir.

Martın 18-də ulularımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən Novruz bayramı münasibətilə Binəqədi rayonunda ümumrayon şənliyi keçirilmişdir. Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında keçirilən ümumrayon Novruz şənliyində rayon rəhbərliyi, millət vəkilləri, Multikulturalizm Dövlət Müşavirliyi Xidmətinin əməkdaşları, rayonun icra strukturlarının və hüquq-mühafizə orqanlarının rəhbərləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Ümumilikdə Binəqədi Rayon İcra Hakimiyyəti, Binəqədi Rayon Gənclər və İdman İdarəsi və Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatı ilə birgə rayonda 50-dən çox tədbir keçirilmişdir. Prezident İlham Əliyevin yürütdüyü siyasət və ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin geniş təbliği, onun ideyalarının və irsinin öyrənilməsi məqsədilə 14, gənclər və idman sahəsində 17, tarixi və əlamətdar günlərin qeyd olunması ilə əlaqədar 23 tədbir keçirilmişdir.

Ötən dövrdə qanunsuz tikililərin və qanunsuz torpaq zəbt etmə hallarının qarşısının alınması istiqamətində Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən vəzifəli şəxslərin hərəkət və hərəkətsizliyindən və korrupsiya halları barədə 6 halda vətəndaşlar tərəfindən müraciətlər olmuş, aparılmış araşdırmanın nəticəsi olaraq 1 hal üzrə vətəndaşa hüquq və vəzifələri izah edildikdən sonra qərəzli şikayət etdikləri bildirilərək ərizənin baxılmasından imtina edilmiş, 5 hal üzrə şikayətlərdə göstərilənlər təsdiqini tapmadığından rədd olunmuşdur.

Vətəndaşların mənzil məişət problemləri ilə əlaqədar 112 müraciət araşdırılmış, 99 müraciət üzrə qanunvericiliyin tələbləri izah edilmiş və 11 ailənin mənzil növbəsinə götürülməsi barədə sərəncam verilmiş, 2 müraciət araşdırılıb nəticəsi barədə vətəndaşa məlumat verilməsi üçün aidiyyəti üzrə göndərilmişdir.

Məruzəçi qeyd etmişdir ki, rayon sakinlərinin qarşılaşdıqları problemlərin həlli istiqamətində operativ tədbirlər həyata keçirmək, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsini yüksəltmək üçün icra hakimiyyətində yaradılmış Sakinlərin Müraciət Xidmətinə cari ilin 1-ci rübü ərzində daxil olan zənglər təhlil edilərkən müəyyən olunmuşdur ki, cavablandırılmış zənglərin sayı 10475, birbaşa cavablandırılmış zənglərin sayı 8166, tərtib edilmiş şikayət vərəqələrinin sayı isə 2309 təşkil etmişdir. Şikayət xarakterli 2309 müraciətin 84,2%-i tam həll olunmuş, 6,9%-i qismən həll edilmiş, 8,9 %-nə müvafiq izahat verilərək həll olunmuşdur. Daxil olmuş şikayətlərin 1213-ü qaz təchizatı, 540-ı su-kanalizasiya, 221-i istilik, 175-i lift problemləri, 118-i sakinləri narahat edən digər məsələlər, 50-si elektrik təchizatı, 16-sı zibil və tullantılar ilə əlaqədar, 8-i yaşıllaşdırma idarəsi, 16-sı isə küçələrin işıqlandırılması ilə əlaqədar olmuşdur.

“Yuxarıda göstərilənlərlə yanaşı, hazırda rayon ərazisində qəsəbələrdə su təchizatının və kanalizasiya şəbəkəsinin yaxşılaşdırılması, “Dərnəgül” yaşayış sahəsində yerləşən qəzalı yataqxana binalarında 1000-ə yaxın məcburi köçkünün məskunlaşması, Biləcəri, M.Ə.Rəsulzadə və Xocəsən qəsəbələrində, Aşağı və Yuxarı Sulutəpə yaşayış massivlərində subasma hallarının qarşısını almaq məqsədilə ümumi kanalizasiya şəbəkəsinin qurulması, Bakı şəhəri ərazisində yeni inşa edilmiş hündürmərtəbəli yaşayış binalarının istismara qəbulu və burada yaşayan vətəndaşların mənzillərini sənədləşdirərək onların rəsmi qeydiyyata alınması və qəsəbədaxili yolların təmirə ehtiyacı kimi zəruri problemlər də mövcuddur”,- deyə V.İsmayılov bildirmişdir.

İcra başçısının müavini çıxışının sonunda xatırlatmışdır ki, Nazirlər Kabinetinin sonuncu iclasında Prezident İlham Əliyev yekun nitqində ordu quruculuğuna daha böyük diqqətin göstərilməsinin vacibliyini bildirmiş, buna nail olmaq üçün iqtisadiyyatın sürətlə inkişaf etməsinin əhəmiyyətinə toxunmuşdur: “İqtisadi müstəqillik ölkəmizin siyasi müstəqilliyini şərtləndirir”, - deyən dövlətimizin başçısı bildirmişdir ki, ölkədə biznes mühiti yaxşılaşdırılır, qeyri-neft sektorunun inkişafı sürətləndirilir, yeni iş yerləri yaradılır, sahibkarlara yardımlar davam etdirilir, investisiyaların təşviqi, bank sektorunun möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər görülür. Azərbaycanda bütün iqtisadi-maliyyə sektoru aparıcı dövlətlərin təcrübəsinə əsaslanaraq ən mütərəqqi prinsiplər əsasında inkişaf etməlidir. İlk növbədə, idarəetmə mexanizmləri təkmilləşdirilməli, şəffaflıq tam şəkildə təmin edilməlidir. Baxmayaraq ki, bu gün dünyada iqtisadi-maliyyə böhranı davam edir, gəlirlər azalıb, ancaq çox operativ addımlar, dərin iqtisadi islahatlar və düşünülmüş müdrik xarici siyasət nəticəsində bütün risklər minimum səviyyəyə endirilmişdir. Bu cür dinamika 2016-cı ildə də davam edəcək. İkinci rübdə iqtisadiyyat daha da sürətlə inkişaf edəcək və ilin əvvəlində qarşıya qoyulan bütün məsələlər öz həllini tapacaq. Biz də öz növbəmizdə cənab Prezidentin tapşırıqlarına və tövsiyələrinə əsasən, Binəqədi rayonunda sosial-iqtisadi infrastruktur layihələrinin yüksək səviyyədə icra edilməsi, işsizlik səviyəsinin azaldılması, sənaye sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dəstək verilməsi, sakinlərin məmnunluq səviyyəsinin artırılmasına dair bütün lazımi tədbirlərin həyata keçirməsini qarşımıza məqsəd qoymuşuq”.

...Hesabat məruzəsi ətrafında çıxış edən Binəqədi Rayon Məşğulluq Mərkəzinin direktoru Məhəmməd Hacıyev, Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru Rafiq İsayev və digərləri rüb ərzində ölkəmizin, eləcə də Binəqədi rayonunun sosial-iqtisadi və mədəni-ictimai həyatında əldə olunan uğurlu nəticələrdən danışmış və qarşıda duran vəzifələri müzakirə etmişlər. Sonra yığıncağın qərar layihəsi oxunmuşdur.

İclasa yekun vuran Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov son günlər təmas xəttində erməni qəsbkarlarının təxribatçı hücumunun qarşısının qətiyyətlə alınması zamanı qəhrəman əsgər və zabitlərimizin göstərdiyi misilsiz şücaətdən söhbət açmış və ordumuzun işğalçılara sarsıdıcı zərbələr vurduğunu demişdir: “Bu hadisələr bir daha göstərdi ki, ordumuz güclüdür və istənilən vaxt Qarabağı azad etmək mümkündür. İnsanlarımız bu hadisələrdə böyük vətənpərvərlik və həmrəylik nümayiş etdirdilər. Bir daha sübut olundu ki, xalqımız ölkə başçısının ətrafında sıx birləşib”. Şəhidlərin dəfnində Binəqədi ictimaiyyətinin yaxından iştirak etdiyini söyləyən icra hakimiyyətinin başçısı Vətən uğrunda canlarını qurban vermiş şəhidlərin oxuduğu məktəbin kollektivinə dərin təşəkkürünü bildirmiş və qeyd etmişdir ki, Binəqədi rayonunda gənclər vətənpərvərlik ruhunda tərbiyə olunur.

X.İsgəndərov sonda qarşıda duran vəzifələrdən danışmış, bəzi nöqsanların aradan qaldırılması ilə bağlı tapşırıqlar vermişdir. RİH başçısı məmurların daha səylə və məsuliyyətlə işləməsinin, vətəndaşların problemlərinin həllində fəal olmasının zəruriliyini vurğulamışdır.

# Növbəti "Açıq qapı" vətəndaş forumu keçirilib



Azərbaycan Respublikasında dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, ictimaiyyətin iştirakının genişləndirilməsi, yeni texnologiyaların tətbiqi əsas prinsiplərdir. Qeyd edək ki, dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi məqsədi ilə "Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı" təsdiq edilmiş və plana əsasən, Binəqədi rayonunda bu istiqamətdə tədbirlər həyata keçirilməkdədir. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun yerlərdə sakinlərlə keçirdiyi mütəmadi səyyar görüşlər əhalinin problemlərinin həllində mühüm rol oynamaqla yanaşı, qəbul edilən qərarlarda, görülən işlər və atılan addımlarda ictimaiyyətin iştirakına əlverişli şərait yaradır. Bu görüşlər zamanı vətəndaşları narahat edən problemlər onların özləri tərəfindən səsləndirilir, digər tərəfdən, sakinlər problemlərini aidiyyəti qurumlara çatdırmaq imkanı qazanırlar.

Aprelin 22-də M. Ə. Rəsulzadə qəsəbəsində yerləşən rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin inzibati binasında keçirilən "Açıq qapı" vətəndaş forumunda Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, hüquq-mühafizə orqanlarının rəhbər vəzifəli şəxsləri və rayon sakinləri iştirak ediblər. Görüşdə qəsəbə sakini Seyran Mirzəyeva yaşadığı binanın həyətinin abadlaşdırılması, Azər Bayramov dam örtüyünün təmiri, Ziyafət Tağıyeva 1,2,3 və 3184/87saylı binaların istilik təchizatı ilə təmin edilməsi, Haqverdi Həsənov isə Baksol yolunun (magistiral yolun) işıqlandırılması ilə əlaqədar müraciət ediblər. Forumda digər qəsəbə sakinlərinin də şikayətlərinə baxılıb.

Sakinləri diqqətlə dinləyən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov problemlərin bir qisminin həlli üçün aidiyyəti qurumların rəhbərlərinə yerindəcə tapşırıqlar verib, bir qisminin həlli isə nəzarətə götürülüb.

# Binəqədi rayonunda Gənclər evi istifadəyə verilib



Aprelin 25-də Binəqədi rayon Gənclər evinin açılışı olub. Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, BMT baş katibinin gənclər üzrə elçisi Ahmad Rafi Mohamad Alhendavi, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov, deputatlar, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən Xaləddin İsgəndərov açılışın BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Azərbaycanda keçirildiyi günə təsadüf etməsinin əhəmiyyətini xüsusi vurğulayıb. Aprelin əvvəlində Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində təmas xəttində döyüşlərdə şəhid olan və yaralanan əsgərlərimizin xatirəsini yad edən Xaləddin İsgəndərov istifadəyə verilən Gənclər evinin gələcəkdə vətənpərvər gənclərin yetişməsində mühüm rol oynayacağını deyib.



Gənclər və idman naziri Azad Rəhimov Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu gənclər siyasətinin həyata keçirildiyini bildirib. O, sağlam və vətənpərvər gənclərin yetişməsinin dövlət gənclər siyasətinin prioritet istiqaməti olduğunu qeyd edib. Azərbaycanda sayca 38-ci Gənclər evinin açıldığını və bu mərkəzlərin respublikamızda geniş şəbəkəyə çevrildiyini diqqətə çatdıran nazir onların böyük əksəriyyətinin regionlarda fəaliyyət göstərdiyini deyib. Nazir vurğulayıb ki, bu mərkəzlər gənclərin hərbi-vətənpərvərlik ruhunda yetişməsi, onların intellektual səviyyələrinin artırılması baxımından mühüm rol oynayacaq.

Gənclər üçün inşa olunan belə gözəl mərkəzin açılışında iştirakdan məmnunluğunu vurğulayan BMT baş katibinin gənclər üzrə elçisi Ahmad Rafi Mohamad Alhendavi ölkəmizə artıq üçüncü dəfə səfər etdiyini vurğulayaraq deyib: "Hər səfərimdə Azərbaycanın dinamik inkişafına heyran oluram. Bu möhtəşəm Gənclər evi də Azərbaycanın sürətli inkişafının daha bir göstəricisidir. Mən 70-dən çox ölkədə səfərdə olmuşam və gənclər üçün müxtəlif mərkəzlər görmüşəm. Lakin açılışında iştirak etdiyimiz bu Gənclər evi gördüklərimin arasında ən yaxşılarından biridir. Burada gənclərin inkişafı üçün hər cür şərait yaradılıb. Bu səbəbdən Azərbaycan hökumətini və xalqını təbrik edirəm. Bu hadisə məni təəccübləndirmir. Bu ölkəni tanıdığım dövrdən dövlətin gənclər sahəsinə yatırdığı sərmayənin yüksək bəhrəsinin şahidi olmuşam. Buna görə də bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan dünyanın ən mötəbər tədbirlərinin keçirildiyi beynəlxalq məkana çevrilib".

Ölkəmizdə gənclərə yüksək diqqət və qayğıdan danışan Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov bildirib ki, dünyada baş verən problemlərə, böhranlara baxmayaraq, Azərbaycan dövləti sosial inkişaf sahəsində heç bir layihənin icrasını dayandırmayıb. F.Muradov Azərbaycanın parlaq gələcəyi üçün ağıllı, vətənpərvər gənclərin yetişməsinin vacibliyini qeyd edib.

Sonra tədbir iştirakçıları Gənclər evində yaradılan şəraitlə tanış olublar. Gənclər evində inzibati otaqlarla yanaşı, 75 yerlik akt zalı, psixo-sosial xidmət, ünsiyyət klubu, elektron kitabxana, informasiya guşəsi, iş otaqları var. Burada xalqımızın ümummilli lideri Heydər Əliyevin mənalı həyatı və zəngin siyasi irsi, Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı guşələr yaradılıb. Mərkəzdə, həmçinin, art-studiya, sərgi qalereyası, söhbət klubu, masaüstü oyunlar otağı, istedadların hazırlığı laboratoriyası, gənc iqtisadçılar klubu, ekologiya dərnəyı, internet klub, peşə mərkəzi, foto və video studiyaları, vətənpərvərlik, texnika və ixtiraçılar klubları, fitnes zalı, tennis və bilyard otaqları, rəqs dərnəyi və gənclər klubu da fəaliyyət göstərir. Bir sözlə, burada Vətənə, dövlətə, xalqa sədaqət ruhunda sağlam düşüncəli gənclərin yetişməsi üçün hər cür şərait yaradılıb.

# Məktəblilər sərgi-müsabiqədə



Binəqədi rayonu 26№-li Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzində Bakı şəhəri üzrə Təhsil İdarəsi, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə rayon orta ümumtəhsil məktəblərinin və məktəbdənkənar tərbiyə müəssisələrinin şagirdlərinin əl işlərindən ibarət elmi-texniki yaradıcılıq işləri üzrə sərgi-müsabiqə keçirilib. Müsabiqədə 5 nominasiya (aviamodel, kosmik raket, avtomodel, gəmi modelçiliyi, radiotexnika) üzrə 70-ə yaxın model və konstruktor işləri nümayiş etdirilib.

Sərgidə fərqlənən dərnək üzvləri və məktəblilər Binəqədi Rayon Gənclər və İdman İdarəsi tərəfindən fəxri fərmanla təltif olunublar. Tədbir mərkəzin xalq çalğı alətləri ansamblının ifasında "Yaşa Azərbaycan" mahnısının ifası ilə başa çatıb.

# Multikulturalizmin Azərbaycan modeli



Aprelin 25-də 135 saylı orta məktəbin akt zalında "Multikulturalizmin Azərbaycan modeli" mövzusunda tədbir keçirilib. Tədbirdə Binəqədi RİH başçısı Aparatının məsul əməkdaşı Rauf Həsənov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin nümayəndəsi Novruz Nuriyev və 3,83,102, 135,228 və 276 saylı orta məktəblərin yuxarı sinif şagirdləri, həmçinin ictimai fənləri tədris edən müəllimlər iştirak ediblər.

"Multikulturalizm nədir?", "Multikulturalizmin Azərbaycan modeli" mövzusunda məruzə ilə çıxış edən Novruz Nuriyev bildirib ki, sivilizasiyaların və mədəniyyətlərin qovuşuğunda yerləşən, Asiya ilə Avropa arasında körpü rolunu oynayan ölkəmizdə mədəniyyət müxtəlifliyi tarixən mövcud olub: "Azərbaycan çoxmillətli, qonaqpərvər bir diyardır. Burada yaşayan xalqlar, toplumlar bütün dövrlərdə özlərini azad, firavan hiss ediblər. Çünki onlar özlərinə həmişə tolerant münasibət görüb, sıxılmadan yaşayıb, yaşayır və mədəniyyətlərini yaşadırlar. Bu gün ölkəmizdə başqa xalqların nümayəndələri öz ana dillərində təhsil ala bilir, dini inanclarına uyğun ibadət edir, heç bir ögey münasibətlə üzləşmədən müxtəlif sahələrdə töhfələrini verirlər. Bu da onu deməyə əsas verir ki, Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir. Multikulturalizm ənənələri Azərbaycanda əsrlər boyu davam edib".

N.Nuriyev bildirib ki, multikulturalizm sözünün semantikası ingilis dilindən hərfi tərcümədən çoxmədəniyyətlilik (mult i- çox, culture - mədəniyyət) anlamına gəlir. Çoxmədəniyyətlilik dedikdə isə ilk növbədə etnik, irqi, dini-mədəni müxtəlifliklər və dəyərlər nəzərdə tutulur. Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü olan siyasətdir: "Multikulturalizmin əsasını tolerantlıq, qanunlara, bir-birinin azadlığına hörmət hissi təşkil edir. Elmi ədəbiyyatda verilən məlumata görə, multikulturalizm anlayışı çox da qədim tarixə malik deyil. Multikulturalizm 1960-cı illərin sonunda Kanadada meydana gəlib. Termin kimi o, 1970-ci illərdə ədəbiyyatda əks olunub. Orta əsrlər Azərbaycan poeziyası nümayəndələrinin əsərlərində ümumbəşəri dəyərlərin təbliği məsələsi başlıca yerlərdən birini tutur.

XX əsrin əvvəllərində Bakı multikultural mədəniyyətə yaxınlaşmağa davam edirdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyevin siyasi iradəsi Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələrinin bərpasını təmin edib. Heydər Əliyev ilk dəfə olaraq multikulturalizmi azərbaycançılıq ideyasının tərkib hissəsi kimi təqdim etdi və ölkəmizin çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirib onu keyfiyyətcə yeni müstəviyə keçirdi.

Azərbaycan nadir ölkələrdəndir ki, eyni zamanda həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüdür. Azərbaycan dünyəvi müsəlman ölkəsidir. İslam bizim müqəddəs dinimizdir və biz öz dinimizə, ənənələrimizə, köklərimizə böyük hörmətlə yanaşırıq".

Multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilib. Bildirilib ki, Heydər Əliyev Fondu da multikulturalizm və tolerantlıq ənənələrimizin beynəlxalq miqyasda təbliğinə böyük töhfələr bəxş edir. Parisdə keçirilən "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda çıxış edən ölkəmizin birinci xanımı Mehriban Əliyeva rəhbərlik etdiyi Heydər Əliyev Fondunun digər dinlərə xüsusi diqqət göstərdiyini bildirib.

Tədbirdə çıxış edən Rauf Həsənov "Multikulturalizm ili" çərçivəsində dövlət tərəfindən qarşıya qoyulan tapşırıqlar, rayonda ölkəmizin multikulturalizm dəyərləri və tolerantlıq ənənələrinin təbliği ilə bağlı görülən işlərdən danışıb. Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Çernobıl faciəsindən 30 il ötür



Aprelin 26-da YAP Binəqədi rayon təşkilatının akt zalında Çernobıl faciəsinin baş verməsinin 30 illiyi ilə əlaqədar tədbir keçirilib. Tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının şöbə müdirləri Ramiz Göyüşov, Elman Dadaşov, Dövlət Sosial Müdafiə Fondunun Binəqədi rayon şöbəsinin müdiri Hüseyn Kərimov, Əhalinin sosial müdafiə mərkəzinin əməkdaşı Rafiq İsayev, rayon Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev, İctimai Şuranın sədri Aslan Mehdiyev və Çernobıl əlilləri iştirak ediblər.

Tədbirdə giriş sözü ilə çıxış edən Vüsar İsmayılov bildirib ki, 30 il əvvəl - 1986-cı il aprelin 26-da Ukraynada yerləşən Çernobıl atom elektrik stansiyasının 4-cü enerji blokunda baş vermiş partlayış nəticəsində 17 milyon insanın yaşadığı 11 rayonun atmosferi zəhərlənib, 4400 nəfər həyatını itirib. Onlardan çoxu partlayışın nəticələrinin aradan qaldırılması üçün əraziyə gəlmiş fəhlələr idi. Güclü radiasiya nəticəsində ümumilikdə 7000-ə yaxın insan həlak olub, 25 min nəfər ömürlük şikəstliklə üzləşib, on minlərlə insan sonsuz qalıb.

Tədbirdə faciə ilə bağlı çıxış edən Elman Dadaşov xatırladıb ki, hadisədən uzun illər keçsə də, radiasiyanın fəsadları hələ də Avropada dolaşmaqdadır. Qeyd olunub ki, qəzanın aradan qaldırılmasının ilk iki ilində 650 min insan xilasetmə işlərinə cəlb edilib. Rəsmi məlumatlara görə, onların 15 mini bir neçə ildən sonra dünyasını dəyişib. Qeyri-rəsmi məlumatlara görə, qəzanın aradan qaldırılmasında iştirak edən təxminən 95-100 min adam məruz qaldığı şüalanma nəticəsində həyatını itirib. Xilasetmə işlərində çalışan təxminən 500-550 min nəfər isə ağır xəstəliyə tutulub. Onların bir hissəsi artıq dünyasını dəyişib, digər hissəsi isə şüalanmanın fəsadlarını hələ də daşımaqda davam etməkdədir. Məruzədə xatırladıb ki, qəzanın nəticələrinin aradan qaldırılması ücün Çernobıla 7 min azərbaycanlı da göndərilib. Bu günədək 2000 nəfər həmyerlimiz şüalanmadan vəfat edib. Azərbaycanda Çernobıl əllilərinə xüsusi qayğı göstərildiyini diqqətə çatdıran məruzəçi bildirib ki, 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qaydışından sonra onlara olan münasibət kökündən dəyişib və bu gün də həmin şəxslər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

Çıxışlardan sonra görüşə dəvət olunmuş Çernobıl əllilərinə hədiyyələr təqdim olunub.

# Ordudan tərxis olunmuş gənclərlə görüş



Aprelin 21-də Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın inzibati binasında ordudan tərxis olunmuş bir qrup gənclə görüş keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinin rəisi Mehman Qurbanov, rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, rayon Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü Həmid Mehdiyev, RİH yanında İctimai Şuranın sədri Aslan Mehdiyev, ordudan tərxis olunmuş və hərbi xidmətə çağırılmış bir qrup gənc iştirak ediblər.

Tədbir son günlər cəbhənin təmas xəttində baş vermiş hadisə zamanı şəhid olmuş hərbçilərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Sonra Binəqədi rayonundan şəhid olmuş hərbçilərimizin şücaətini əks etdirən videoçarx nümayiş etdirilib.

Görüşü giriş sözü ilə açan Vüsar İsmayılov torpaqlarımızın 20 faizini işğal etmiş ermənilərin məkrli hərəkətlərindən danışıb. Cəbhənin təmas xəttində baş vermiş son hadisələrə toxunan V.İsmayılov hərbiçilərimiz tərəfindən torpaqlarımızın bir hissəsinin işğaldan azad edildiyini bildirib. Qeyd edib ki, artıq bütün dünya Azərbaycan ordusunun hansı gücə malik olduğunu hiss etməkdədir.

Mehman Qurbanov son günlər ordumuzun təmas xətində əldə etdiyi uğurlardan danışıb. O, həmçinin, ordudan yeni tərxis olunmuş əsgərlərimizə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan söz açıb. Tədbirdə çıxış edən Həmid Mehdiyev, Aslan Mehdiyev və Qüdsi Bayramov ordumuzun qüdrətindən söz açaraq hərbi xidmətə yola salınacaq çağırışçılara uğurlar diləyiblər. Görüşdə ordudan yenicə tərxis olunmuş əsgərlər - Sənan Hacıyev, Vüqar Süleymanov, valideyn Fikrət Əliyev və digər şəxslər çıxış ediblər. Sonda ordudan tərxis olunmuş gənclərə hərbi biletlər təqdim olunub.

# "Milli Qəhrəmanlar" parkında anım tədbiri

Aprelin 22-də Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Milli Qəhrəman Allahverdi Bağırovun 70 illik yubileyi münasibəti ilə tədbir keçirilib. Biləcəri qəsəbəsindəki "Milli Qəhrəmanlar" abidəsinin yerləşdiyi parkda təşkil olunan tədbirdə RİH başçısının müavini Vüsar İsmayılov, Aparatın şöbə müdiri Elman Dadaşov, rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış İdarəsinin rəisi Mehman Qurbanov, idarə, müəssisə, təşkilat nümayəndələri və Milli Qəhrəmanın ailə üzvləri iştirak ediblər.






Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə "Respublika Milli Qəhrəmanları Tanıtma" İctimai Birliyinin sədri Elşən Uluxanlı, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinin rəisi Mehman Qurbanov Allahverdi Bağırovun həyatı və keçdiyi döyüş yolundan danışıblar. Ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksələn qəhrəmanın bacısı Svetlana Bağırova daim dövlətin diqqəti və qayğısı ilə əhatə olunduqlarını deyib.

Tədbirdə çıxış edən Vüsar İsmayılov bildirib ki, Allahverdi Bağırovun 70 illik yubileyinin "Milli Qəhrəmanlar" parkında keçirilməsində məqsəd yetişməkdə olan gənc nəslə vətənpərvərlik ruhunu aşılamaqdır.

Tədbirin bədii hissəsində Biləcəri qəsəbəsində fəaliyyət göstərən Şuşa şəhər 3 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında kompozisiya təqdim olunub.

# Qəhrəmanlar taborunun ölməz komandiri



Şəhidlik zirvəsi hər kəsə nəsib olmur. Bu ucalığa yalnız vətənpərvərlər, torpağını və millətini sevənlər yüksəlirlər. Azərbaycan xalqının bu zirvədə qərarlaşan qəhrəman övladları hər zaman olub, var və olacaq. Azərbaycanın Milli Qəhrəmanı kimi şərəfli ada layiq görülən, öz cəsurluğu ilə ad-san qazanan Allahverdi Bağırov da məhz belə igidlərimizdən olub.

...Qarabağ müharibəsində rəşadətli döyüş yolu ilə adı dillər əzbəri olan Allahverdi Bağırov 1946-cı il aprelin 22-də Ağdam şəhərində anadan olub. 1965-ci ildə 1 saylı şəhər orta məktəbini bitirən qəhrəmanımız uşaq yaşlarından idmana böyük maraq göstərib, əsasən voleybol və futbolla məşğul olub. Vaxtilə hətta "Qarabağ" futbol komandasının heyətində çıxış edib. Sonralar isə komandaya maddi və mənəvi dəstək olub.

Ermənistanın Azərbaycana qarşı apardığı iopalzə müharibədə onun rəhbərliyi altında könüllülərdən ibarət "Vətən oğulları" adlı dəstə yaradılıb. Tezliklə "Allahverdinin batalyonu" kimi dillər əzbəri olan könüllülət cəbhənin bir sıra istiqamətlərində, xüsusilə Qarakənd yaxınlığında uğurlu əməliyyatlar keçirib. Xocalı faciəsi zamanı igid komandirin başçılığı ilə yüzlərlə soydaşımız erməni əsarətindən xilas edilib. 1992-ci ilin iyununda Aranzəmin, Naxçıvanik, Dəhraz, Mirkənd və Pirçamal kəndləri düşməndən azad olunub. Həmin döyüşlərin birində gözətçi məntəqələrini yoxlayıb qərargaha dönərkən sürücü ilə birlikdə minaya düşərək həlak olan A.Bağırov Ağdam rayonunda Şəhidlər xiyabanında dəfn edilib.

24 fevral 1993-cü il tarixdə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Bir oğlu və 2 qızı var.

2014-cü ildə Biləcəri qəsəbəsində istifadəyə verilmiş Milli Qəhrəmanlar Parkında Allahverdi Bağırovun da büstü ucaldılıb.

Milli Qəhrəmanın bacıları – Svetlana və Almaz Bağırovalar bu günlərdə redaksiyamızın qonağı olublar. Onlarla birlikdə Allahverdi Bağırovun keçdiyi mənalı ömür yolunu vərəqlədik...

***– Qardaşınızı necə xatırlayırsınız? Onun doğma yurda münasibəti göstərdiyi igidlikdən məlumdur. Bəs bir qardas, adi insan kimi onu necə xarakterizə edərdiniz?***

**Svetlana xanım:**

– Heç yadımızdan çıxır ki (gözləri dolur)... Aldığımız nəfəs idi Allahverdi. Atamın 5 qızdan sonra nəzir-niyazla tapdığı, gəlişinə yeddi qurban kəsdiyi oğul payı idi o. Bacılarının ismətiydi Allahverdi. Anadan olanda bütün nəslimiz sevinmişdi. Əndi də bu işıqlı dünyaya onun gözüylə baxırıq, onu görürük, fəxr edirik. Sən demə, beş qızdan sonra Allahın verdiyi bu pay təkcə ailənin yox, sonralar bütün Azərbaycan xalqına verdiyi oğul payı oldu. Ucaboylu, yrlı-yaraşıqlı idi. Elə bil o qəhrəman kimi doğulmuşdu. İdmanı çox sevirdi. "Qarabağ" futbol komandasında oynayıb. Sonra komandanın kapitanı oldu. Komanda dağılan müddətdə sponsorluq etdi. Məşqçilik etdi, komandanı yaşatdı. Kiçik qardaşım Eldar da komandada oynayırdı. Hər ikisi müdafiəçi idi.

Məlum hadisələr başlayanda igid oğullarımız Vətənin müdafiəsinə qalxdılar. Allahverdi Bağırovun qəhrəmanlığı dillərdə dastan olub. Əsl qeyrətli oğullar Vətənin dar günündə sınağa çəkilər. 1988-ci ildə ermənilərin Qarabağa hücumları zamanı ilk ayağa qalxan igid oğullarımızın sırasında Allahverdi və Eldar ön sıralarda idi.



Allahverdi Ağdam əhalisi tərəfindən göstərilən maddi yardım və öz şəxsi vəsaiti hesabına Qarabağ kəndlərində yaradılmış kiçik özünümüdafiə dəstələrinə yaxından köməklik göstərib, rayon ərazisində gedən döyüşlərdə mərdliklə vuruşub. Müstəqil Azərbaycanın bayrağını ilk dəfə Ağdama sancan Allahverdi olub. Onu da deyim ki, 1988-ci ildə Ağdamda ilk müdafiə dəstələrinin formalaşmasında digər qardaşım Eldarın da böyük rolu olub. 1991-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Ağdamdakı hərbi hissələri Eldar və Allahverdinin komandirliyi altında yaradılıb. Eldarın rəhbərlik etdiyi hərbi hissə 845 nömrəli Ağdam ərazi özünümüdafiə taboru idi. 760 nəfərlik batalyon "Vətən oğulları" adlanırdı. Həmin il Eldar Ali Sovetin iclasından qayıdarkən yaşadığı evin qarşısında müəmmalı şəkildə qətlə yetirildi. Elə o vaxtdan Allahverdi saqqal saxladı və batalyona rəhbərliyi цz ьzərinə gцtьrdь.



1992-ci ilin yanvarında Allahverdinin komandirlik etdiyi tabor Naxçıvanik kəndində işğalçıların xeyli canlı qüvvəsini və texnikasını darmadağın edib, 150 döyüşçü ilə Əsgəran qalasına qədər irəliləyib. Qızğın döyüşlərdən sonra Pircamal kəndində bütün yüksəkliklər tutulub, Kətük kəndi ilə üzbəüz strateji mövqe qurulub. Bu əməliyyatların başa çatması və erməni bayraqlarını Azərbaycan bayraqları ilə əvəz etmək üçün qardaşımın döyüşçüləri axşam saat 5-dən 9-a qədər rəcadətlə vurucublar. Həmin əməliyyata görə Allahverdiyə "General Məhəmməd Əsədov" adına mükafat verilib. Təəsüf ki, bu döyüş qardaşımın son döyüşü oldu. Azad edilmiş kəndlərdən Ağdama əsgərlərə yardım üçün qayıdanda içərisində olduğu avtomobil minaya düşdü...

**Almaz xanım:**

– Xocalı faciəsində amansızlıqla, vəhşiliklə qətlə yetirilmiş yüzlərlə insanın cəsədi məhz Allahverdinin köməyi ilə düşmən əlindən alındı, itkin düşənlər axtarılıb tapıldı. Yüzlərlə əsir götürülmüş həmyerlimiz məhz onun köməkliyi ilə geri qaytarıldı. O vaxt hamı Allahverdiyə müraciət edirdi, ondan kömək istəyirdi. Qardaıюəm 1003 nəfəri əsirlikdən xilas etdi, 700-ə qədər cəsədi yiyələrinə təhvil verdi. Bütün bunların əvəzində isə qarюə tərəfə 32 erməni əsiri, 40 muzdlu döyüşçü meyiti verdi. Həyatını təhlükə altına qoyaraq ermənilərlə birbaşa danışıqlara gedirdi. Xocalı faciəsindən sonra Allahverdi sanki bizdən gizlənirdi. Dörd gün sonra evə gəldi. Ayaq üstə güclə dayanırdı, yüyürüb qucaqladım. Üzgözü, əlləri, paltarı qan içində idi, çətinliklə yeriyirdi. Dedi ki, qorxma, yaralanmaməюam, cəsədlərin qanıdır. Evə apardım, ayaqları şişdiyi üçün ayaqqabıları kəsib çıxardım, əl-ayağını isti suya qoydum. İnildədi, dedi ki, qorxma, ağrımıram, gördüyüm müsibətlər məni inildədir. İki-üç saatdan sonra dedi ki, maşın çağır, məni aparsın. Dedim, ay qardaş, qurban olum, yat, dincəl. Üzümə sərt baxıb, qəzəblə "nəəə?" dedi. O kəlmə, inanın, hələ də qulaqlarımdan getmir. Yəni demək istəyirdi ki, millətin bu müsibətli günlərində necə yatım, dincəlim?! Elə hey üzünü bizdən gizlətməyə çalışırdı. Sanki ermənilərin törətdiklərindən utanıb xəcalət çəkirdi. Xocalı faciəsindən həddindən artıq sarsılmışdı, qadınları, qızları görəndə başını aşağı salırdı. 9 yaşlı qız uşağının başına nə oyun açmışdılarsa, gəlib evdə hönkür-hönkür ağladı...

Ermənilərlə danışıqlar aparmaq, don vurmuş meyitləri çıxarmaq, onları Ağdama gətirmək, dəfn etmək, yaslarını vermək, əsirlikdən qurtaranları yerləşdirmək... Bütün bunlar bəlkə də Xocalı dəhşətlərini anlamayanlar üçün asan görünər. Günlərlə meyit gözləyən insanlara kömək əlini yalnız Allahverdi uzadırdı. Hamısını da öz vəsaiti hesabına eləyirdi. Ölənlərin dəfninə də köməklik göstərirdi. Ağdam məscidində yaxınlarına verilən işgəncələri görməsinlər deyə, meyitləri dərhal yuyub kəfənləyirdilər.

Xocalı faciəsi zamanı üç uşağı əsirlikdən almışdı, analarını isə ermənilər girov götürmüşdülər. Həmin uşaqları uzun müddət evimizdə saxladıq, sonra uzaq qohumları gəldi, təhvil verdik.

***– İstərdik ki, bir qədər Milli Qəhrəmanımızın övladları barədə danışasınız.***

**Almaz xanım:**

– Oğlu Elşən özü ilə onun batalyonunda vuruşub. Hərbçidir, kəşfiyyatçı idi. Həmin döyüşlərdə o da iştirak etmişdi. Qızları Aynur və Zümrüd də hərbi sahədə çalışırlar. Təbii ki, övladları qəhrəman ataları ilə həmişə fəxr edirlər.

***– Allahverdi Bağırovun dəfn olunması məsələsində, deyəsən, bir az anlaşılmazlıq olub...***

**Svetlana xanım:**

– Əvvəlcə Bakıdakı Şəhidlər xiyabanında dəfn olunması nəzərdə tutulmuşdu. Hətta onun üçün qəbir də qazılmışdı. Sonra Allahverdi o biri qardaşım Eldar Bağırovun yanında – Ağdam şəhərinin Şəhidlər xiyabanında edildi. 1993-cü ildə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına, daha sonra isə "Qızıl ulduz" medalına layiq görülüb.

***– Qardaşınız Vətənimizin dar günündə silaha sarıldı, torpaqlarımızın azadlığı uğrunda həyatını əsirgəmədi. Lakin o duvrdə ona göstərilən münasibət birmənalı deyildi. Yəqin ki, bu fikirlə siz də razılaşarsınız...***

**Almaz xanım:**

– Allahverdi igid oğul idi. Onun kimilər dünyaya tək-tək gəlir. Qardaşımın heç nəyə ehtiyacı yox idi, hər cür şəraiti var idi. Amma doğma Vətənə olan məhəbbəti onu silaha sarılmağa məcbur etdi. Bəli, bir ara Allahverdiyə qarşı laqeydlik olub, ona münasibət birmənalı olmayıb. Təəssüflənirəm ki, doğulduğu Ağdam rayonunda Allahverdinin qəhrəmanlığına düzgün qiymət verilmədi. İstərdik ki, Ağdam məktəblərinin biri onun adını daşısın.

Biləcəri qəsəbəsində Milli Qəhrəmanlar Parkında qardaşımın büstü ucaldılıb. Ora bizim ümid yerimiz, ziyarətgahımızdır. Qardaşımın iyini ordan alıram. Qardaşımın qəbri hazırda işğal altındadır, qəbrini ziyarət edə bilmirik.

Allahverdi üçün burnumuzun ucu göynəyir (kцvrəlir), onun yasəmən çiçəyindən çox xoşu gəlirdi. Heyfsilənirəm ki, məzarına yasəmən çiçəyi apara bilmirəm. Amma Milli Qəhrəmanlar Parkına gedəndə, az da olsa, toxtaxlıq tapırıq. Fürsətdən istifadə edib, Binəqədi Rayon İcra Hakimiyyətinin rəhbərliyinə ailəmiz adından minnətdarlığımızı bildiririk. Sağ olsunlar ki, canını Vətən yolunda fəda edən qardaşım üçün Biləcəridə yer tapıldı...

# “Şahin” hərbi-idman oyununun rayon mərhələsi



Binəqədi Rayon Gənclər və İdman İdarəsinin 2016-cı il tədbirlər planına uyğun olaraq, aprelin 22-də Daxili Qoşunların Biləcəri qəsəbəsində yerləşən “N” saylı hərbi hissəsində yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, məktəblilərin hərbi xidmətə hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə orta ümumtəhsil məktəblərinin şagirdlərinin iştirakı ilə “Şahin” hərbi-idman oyununun rayon mərhələsi keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, Daxili Qoşunların polkovniki Mətləb Qənbərov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinin rəisi Mehman Qurbanov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini Aydın Yusifov, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbəsi inzibati ərazi dairəsi üzrə nümayəndəsi İbad İbrahimov, məktəb direktorları, hərbi hazırlıq və fiziki tərbiyə müəllimləri iştirak ediblər.

Yarışda komandanın tərkibi 14 nəfərdən ibarət olmaqla (5 nəfər oğlan, 2 nəfər qız 8-ci sinif, 5 nəfər oğlan, 2 nəfər qız 10-cu sinif) ümumilikdə 32 məktəbdən 448 nəfər 8 mərhələ üzrə qüvvəsini sınayıb.

Yarışın nəticəsinə görə, 100 №-li tam orta məktəbin komandası birinci yerə layiq görülüb. 182 və 157 saylı məktəblərin komandaları isə 2-3-cü pillədə qərarlaşıblar.

# Verilən vədə vaxtında və keyfiyyətlə əməl olunub



Ötən ilin may ayının 19-da Binəqədi rayonu Azadlıq prospekti 200/36 saylı yaşayış binasında baş vermiş yanğın hadisəsi bu gün də mətbuatda müzakirə mövzularındandır. Xatırladaq ki, yanğın zamanı binadakı bütün mənzillərə ciddi ziyan dəymişdi. Yanğın baş verəndən dərhal sonra ölkə başçısı çoxmərtəbəli binada baş vermiş yanğın ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzalamışdır.

Görülən operativ tədbirlər nəticəsində beş ay müddətində çoxmərtəbəli binada baş vermiş yanğının nəticələri aradan qaldırılmış və hadisə zamanı yanmış mənzillərin hamısı müasir standartlara uyğun təmir edilərək sakinlərə təhvil verilmişdir. Bütün bu deyilənlərlə yerində tanış olmaq məqsədilə ötən gün sözügedən ünvanda olduq.



Binanın təmir-bərpasının yüksək keyfiyyətlə aparıldığı və müasir standartlara cavab verdiyi elə zahiri görünüşündən də dərhal hiss edilir. Təmir-tikinti işlərindən sonra binanın əvvəlki görünüşündən əsər-əlamət qalmayıb. Sovetlər dönəmində istifadəyə verilən binada təmirdən sonra lift sistemindən tutmuş istilik sisteminə və yanğından təhlükəsizliyə qədər hər şey nəzərə alınıb. Təhvil verilən mənzillər mebel, vanna otağı aksessuarları, paltaryuyan maşın, qaz sobası kimi məişət texnikası ilə təchiz edilib. Bizimlə söhbət zamanı mənzil sahibləri bildirdilər ki, hadisə baş verən kimi təcili olaraq, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müvafiq Sərəncamı ilə Rayon İcra Hakimiyyəti Aparatının məsul vəzifəli şəxslərinin, Hüquq-mühafizə orqanları, müxtəlif dövlət qurumları və rayon təsərrüfat idarələri rəhbərlərinin iştirakı ilə Qərargah yaradılmış və Qərargah Binəqədi Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsində fəaliyyətə başlamışdır. Qərargah hər gün səhər saat 8:00-dan axşam saat 24:00-dək fəaliyyət göstərmiş və həmin müddət ərzində sakinlərin yerləşdirilməsi və onları narahat edən bütün problemlərin həllinə nail olmuşdur.

Qərargahın köməkliyi ilə bina sakinlərinə ilkin olaraq Dövlət Komissiyası tərəfindən ayrılmış 20 min manat məbləğində birdəfəlik kompensasiya, binanın təmiri müddətində yəni 5 ay ərzində hər bir mənzilə isə 2500 manat kirayə pulu ödənilməsi təmin edilmişdir.



19 saylı mənzilin sahibi Bəxtiyar Əsgərov hadisəni belə təsvir edir: “Baş vermiş yanğın hadisəsindən bir qədər gec xəbər tutdum. Mən gələndə artıq binanı alov bürümüşdü. Bizə bildirdilər ki, icra hakimiyyətinin tapşırığı ilə qərargah yaradılıb və ora müraciət edin. Və müraciət etdik, bizi narahat edən bütün problemlərin həllində yardımçı oldular. Bundan əlavə, bizə dövlət tərəfindən 5 ay kirayə pulu ödənildi. Sentyabrın 27-də isə öz mənzilimizə köçdük”. Üçotaqlı mənzilinin müasir tələblərə uyğun təmir edildiyini deyən B.Əsgərov otaqların və mətbəxin mebellə təchiz olunduğunu bildirdi: “Binanın girişi və dəhliz hissəsi yenidən qurulub. Pilləkənlər bir qədər genişləndirilib, müasir yanğından müdafiə sistemi quraşdırılıb, lift yenilənib. Təmirdən sonra bütün mənzillər isti su ilə təmin olunub. Təmir zamanı sakinlərin təklif və istəyi də nəzərə alınıb. Məqsəd o olub ki, sakinlər görülən işlərdən razı qalsınlar. Binanın təmirində keyfiyyətli materiallardan istifadə edilib. Onu da deyim ki, kirayə yaşadığımız müddətdə dövlətimizin daim maddi və mənəvi dəstəyini hiss etmişik. Dövlət tərəfindən hər bir ailəyə kompensasiya ödənilib. Bayramlar ərəfəsində da ailələrə yardım olunub. Elektrik cihazları, geyim dəstləri verilib”.



11 saylı mənzilin sakini Surxay Sadıqov da binada görülmüş işlərdən razı qaldığını söylədi: “Mənzillərimiz yüksək səviyyədə təmir olunub. Sağ olsunlar, otaqların qapı və pəncərələri dəyişdirilib, döşəməyə parket vurulub, mebellə təmin olunub, mətbəxdə elektrik sobası quraşdırılıb. Mənzillərə isti su verilir, lift yenilənib”. Baş vermiş hadisəni həmsöhbətim belə xatırlayır: “Ağır gün idi, oğlum Ülvü mənə zəng etdi ki, ata, binamız yanır, məni xilas et. Təcili maşına minib evə gəldim. Artıq hər tərəfi alov bürümüşdü, bina tanınmaz halda idi. Kimsə dedi ki, Ülvü otaqda qalıb, çıxa bilmir. Sonradan öyrəndim ki, onu polis xilas edib, hazırda müalicəsi davam edir. Qeyd etməyi özümə borc bilirəm ki, o ağır günlərdə dövlətimiz daim yanımızda olub. Bizim ailəyə 20 min, oğluma isə müalicə üçün əlavə 5 min kompensasiya verilib. Binada aparılan təmir işlərindən çox razıyıq. Təmir zamanı binada əlavə bərkitmə işləri aparılıb. Sakinlərin təhlükəsizliyi ilə bağlı mərkəzləşdirilmiş onlayn sistem quraşdırılıb. Bu sistemin köməyi ilə binada yanğın təhlükəsinin qarşısı dərhal alınacaq. Mənzillərdəki hamamlara və pilləkən boşluqlarına təmiz hava vurmaq üçün yeni havalandırma sistemi quraşdırılıb. Binanın divarları keyfiyyətli boya ilə rənglənib, döşəmə mərmərlə işlənib. Mərmər materialdan yalnız pilləkənlərdə deyil, dəhlizdə və mənzillərin eyvanında da istifadə olunub”.

**P.S.** Bu silsilədən olan növbəti reportaj ilə gələn sayımızda tanış ola bilərsiniz.

# Şəhidlərin əziz xatirəsinə böyük ehtiramla...




Aprelin 19-da Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, YAP Binəqədi rayon təşkilatının və Binəqədi Mərkəzi Mədəniyyət Evinin təşkilatçılığı ilə “Torpaq uğrunda ölən varsa - Vətəndir” adlı tədbir keçirilib. Tədbir son günlər qoşunların təmas xəttində gedən döyüşlərdə şəhid olmuş Binəqədi qəsəbəsinin sakinləri Emin Bağırov və Fəxrəddin Qurbanlının əziz xatirəsinə həsr olunub. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Rəvanə Əliyeva, şəhidlərin valideynləri və ailə üzvləri, qəsəbə icra nümayəndəliyinin və qəsəbə bələdiyyəsinin rəhbərliyi, “N” saylı hərbi hissənin əsgərləri, məktəblilər, müəllimlər və qəsəbə sakinləri iştirak ediblər.

Əvvəlcə torpaqlarımız uğrunda gedən döyüşlərdə canını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub və

Emin Bağırov və Fəxrəddin Qurbanlıya həsr edilmiş video film nümayiş etdirilib. Giriş sözü ilə çıxış edən Binəqədi Mərkəzi Mədəniyyət Evinin direktoru Zivər Abbasova şəhidlik zirvəsinə ucalan vətən övladlarının ailələrinə başsağlığı verib və onlara uca Tanrıdan səbr diləyib.

Bildirib ki, torpaqlarımız uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olan şəhidlərimiz gənclərimiz üçün nümunədir. Qeyd olunub ki, xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb, qanı ilə yazan şəhidlər illər, əsrlər keçsə də heç vaxt unudulmur.

Dövlətimizin şəhid ailələrinə olan diqqət və qayğısından danışan Rəvanə Əliyeva torpaqlarımızın düşmən tapdağından azad olunacağı və şəhidlərimizin qanının yerdə qalmayacağı günün yaxında olduğunu vurğulayıb. Şəhid Emin Bağırovun qardaşı Yaqub Bağırov və şəhid Fəxrəddin Qurbanlının əmisi Adil Qurbanov Vətən yolunda şəhid olmuş ailə üzvlərinin qanının yerdə qalmayacağına inandıqlarını və hər zaman Ali Baş Komandanın əmri ilə torpaqlarımızın azad olunması üçün vuruşmağa hazır olduqlarını bildiriblər.

Tədbir Vətənə, şəhidlərə həsr olunmuş şeir kompozisiyaları və mədəniyyət evinin üzvlərinin ifasında “Qarabağ şikəstəsi” ilə yekunlaşıb.

# “Qarabağ həftəsi” layihəsinə start verilib

Aprelin 21-də Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında “Qarabağ həftəsi” layihəsinə start verilib. Binəqədi Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçiriləcək layihə may ayı ərzində silsilə olaraq davam etdiriləcək və rayonda yerləşən bütün orta ümumtəhsil məktəblərini əhatə edəcək. Layihənin həyata keçirilməsində əsas məqsəd dövlətimiz və xalqımız üçün hər zaman aktual və müqəddəs amallardan olan vətənpərvərliyin təbliği, Azərbaycanın əzəli tarixi torpaqları olan Dağlıq Qarabağın ermənilər tərəfindən işğalı faktının geniş ictimaiyyətə çatdırılmasından ibarətdir.

Azərbaycan xalqı tarixən erməni qəsbkarlarının və onun havadarlarının hücumlarına, soyqırımlarına və müxtəlif amansız təqiblərinə məruz qalıb. 1988-ci ildən başlayaraq, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi - Dağlıq Qarabağın, eləcə də ona bitişik 7 rayonun ərazisi işğal olunmuş, bir milyona yaxın həmvətənimiz öz daimi yaşayış yerlərindən məhrum olaraq qaçqın və köçkün düşmüşlər. Bu faktları işıqlandırmaq, yetişməkdə olan nəsillərə ötürmək isə ən mühüm məsələlərdəndir. “Qarabağ həftəsi” layihəsi məhz bu missiyanın həyata keçirilməsinə xidmət edir.

Layihə çərçivəsində əvvəlcədən aparılmış bölgü əsasında orta məktəblər tərəfindən işğal altında olan rayonlarımıza həsr olunmuş təqdimatlar keçiriləcək. Şagirdlərdən ibarət qruplar işğal altındakı rayonlarımızın tarixini, etnoqrafiyasını, coğrafi mövqeyini, iqtisadiyyatını, milli-mənəvi, multikultural dəyərlərini, görkəmli şəxsiyyətlərini, musiqi, rəqs nümunələrini və digər istiqamətləri əhatə edən təqdimatlar həyata keçirəcəklər. Təqdimatları musiqi və rəqs, bədii qiraət, qısa səhnəciklər və müxtəlif slaydlar əhatə edəcək. Daha sonra təşkilatçı qrup tərəfindən seçilmiş münsiflər heyəti təqdimatları müxtəlif nominasiyalar üzrə qiymətləndirəcəklər.

Yekun tədbirdə orta ümumtəhsil məktəbləri tərəfindən işğal olunmuş rayonları əhatə edən stendlər quraşdırılacaq və seçilmiş təqdimat nümunələri nümayiş etdiriləcək. Sonda mükafatlandırma mərasimi təşkil olunacaq və bütün layihə iştirakçılarına xatirə hədiyyəsi təqdim ediləcək.

# Narkomaniyaya qarşı mübarizə ilə bağlı seminar



Aprelin 21-də Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında Binəqədi Rayon Gənclər və İdman İdarəsi və Akademiyanın birgə təşkilatçılığı ilə gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaq və onlar arasında sağlam həyat tərzinin təbliği məqsədilə “Narkomaniya gələcəyimiz üçün böyük təhlükədir” mövzusunda seminar keçirilib. Tədbirdə Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Sevinc Süleymanova, Akademiyanın Tədris işləri üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru, dosent Sirac Məmmədov, YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə, gənc psixoloqlar Aytac Abbasbəyli və Zümrüd Əkbərova, həmçinin tələbələr iştirak ediblər.

Əvvəlcə gənclərin “Narkomaniyaya yox deyək!” mövzusunda rəsm işlərindən ibarət sərgi nümayiş etdirilib. Sonra çıxış edənlər müasir dövrdə gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaq, onların asudə vaxtlarını səmərəli və yaradıcı keçirmələri üçün maarifləndirici seminarların təşkilinin əhəmiyyətindən danışıblar.

Sonda gənc psixoloqlar tərəfindən narkomaniyanın fəsadlarından bəhs edən təqdimatlar olub. Seminar gənclərin sualları ətrafında diskussiya ilə davam etdirilib.

# Məktəblilər futbol turnirində



Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Binəqədi Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Vətən" Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər Futbol Məktəbinin stadionunda rayon orta ümumtəhsil məktəblərinin 7-ci sinif şagirdləri arasında "Coca-Cola Məktəbli Kuboku" uğrunda futbol turnirinin final oyunları keçirilib.

Turnirdə ümumilikdə hər birində 12 nəfərdən ibarət (tərkibində bir nəfər qız olmaqla) 30 komanda iştirak edib. Oyunun nəticəsinə əsasən, 1-ci yeri 244 №-li tam orta məktəbin komandası tutub. 135 və 276 №-li tam orta məktəblərin komandaları isə 2-3-cü yerləri bölüşdürüblər. Yarışda fərqlənənlər diplom və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

# "Birgə Yaradaq" layihəsi uğurla davam edir

Binəqədi rayonunun bütün ərazilərində profilaktik-təmizlik işləri uğurla davam etdirilir. Hazırda 95,72, 79–saylı MKİS-in xidməti ərazisində həyətlərə profilaktik qulluq edilir, dezinfeksiya işləri aparılır. Bu barədə qəzetimizə Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin (MKTB) baş mühəndisi Vəli Əiyev məlumat verib. Onun sözlərinə görə, "Birgə Yaradaq " layihəsi çərçivəsində təmizlik işlərinin aparılması, ərazilərin alaq otlarından təmizlənməsi və sair tədbirlərin görülməsi nəzərdə tutulub. İri qabaritli məişət tullantıları MKTB-yə məxsus texnikaların köməyi ilə ərazidən daşınır.



Baş mühəndis qeyd edib ki, rayon icra hakimiyyətinin təşəbbüsü ilə gücləndirilmiş iş rejiminə keçilməsi ilə əlaqədar verilmiş tapşırıqlara, 1-ci rübün yekunları ilə bağlı keçirilmiş son müşavirədə qarşıya qoyulmuş tələblərə uyğun olaraq, bu günlərdə MKTB-nin rəhbərliyi səyyar toplantı keçirib. Toplantıda MKTB rəisinin müvafiq təlimat və xüsusi göstərişi əsasında təmizlik işləri ilə məşğul olan əməkdaşların fəaliyyəti, o cümlədən xidmət etdikləri ərazidə profilaktik-təmizlik işlərinin vəziyyəti və keyfiyyəti təhlil edilib, çatışmazlıqlar müzakirə olunub və yeni qaydaların icrasının təminatı ətraflı araşdırılıb.

# Taekvondo üzrə rayon birinciliyi

Binəqədi rayonunda fəaliyyət göstərən 313 №-li tam orta məktəbin idman zalında rayon Gənclər və İdman İdarəsinin dəstəyi, "Fərasət" İdman Klubunun təşkilatçılığı ilə uşaq və yeniyetmələr arasında vətənpərvərlik hisslərini gücləndirmək və taekvondo idman növünün inkişaf etdirilməsi məqsədilə şəhidlərin xatirəsinə həsr olunmuş açıq rayon birinciliyi keçirilib.

Uşaq və yeniyetmələr arasında təşkil olunan yarışda ümumilikdə 11 çəki nəticəsinə əsasən, müxtəlif çəki dərəcələri üzrə 12 nəfər I yerə layiq görülüb. 12 nəfər II, 23 nəfər isə III pillədə qərarlaşıb. Yarışda fərqlənənlər diplom və medallarla mükafatlandırılıblar.



# Tələbələrə şəhadətnamələr verilib



Binəqədi Rayon Gənclər və İdman İdarəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Diplomatiya Klubu və Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə "Yaxın Şərqdə stabilliyin bərpası üçün tədbirlər planı" mövzusunda 30 nəfər tələbənin iştirakı ilə BMT Baş Assambleyası simulyasiya oyunu keçirilib. Tədbir başa çatdıqdan sonra iştirakçılara şəhadətnamələr təqdim olunub.

# Dünya Bankı TANAP-a 1 milyard dollar, Avropa İnvestisiya Bankı 1 milyard avro ayırır

Dünya Bankı (DB) Trans-Anadolu qaz kəməri (TANAP) layihəsinə 1 mlrd. dollar ayırmağı planlaşdırır. "Hürriyet" qəzetinin yaydığı xəbərə görə, Avropa İnvestisiya Bankı isə layihənin maliyyələşdirilməsinə 1 mlrd. avro ayıracaq.




Bank rəsmisinin qəzetə verilən açıqlamada bildirilir ki, DB enerji sektorunda strateji əhəmiyyət kəsb edən TANAP layihəsinin bir parçası olmaq niyyətindədir: "BOTAŞ-ın maliyyələşdirilməsində yardımçı olacağıq. Söhbət təxminən 1 mlrd. dollarlıq maliyyə dəstəyindən gedir. Eyni zamanda biz Avropa İnvestisiya Bankı ilə əməkdaşlıq edirik. TANAP-ın 58%-i SOCAR-a, 30%-i BOTAŞ-a, 12%-i isə BP şirkətinə məxsusdur. Hər bir səhmdar bu bölgüyə müvafiq olaraq layihəni maliyyələşdirir. Dünya Bankı və Avropa Birliyinin borc vermə mexanizminə uyğun olaraq Avropa İnvestisiya Bankı TANAP-a sərmayə yatırmağa hazırlaşır. Pay bölgüsünə uyğun olaraq, BOTAŞ TANAP-a 3 mlrd. dollarlıq yatırım etməlidir. Bunun üçün BOTAŞ Dünya Bankından 1 mlrd. dollar, Avropa İnvestisiya Bankından isə 1 mlrd. avro cəlb edəcək".

TANAP Gürcüstan-Türkiyə sərhədindən Türkiyə-Yunanıstan sərhədinə qədər uzanan, ümumi uzunluğu 1850 kilometr olan qaz kəmərləri sistemi, dənizdən keçən qısa hissə, birləşdirici xətlər, kran qovşaqları, ərsinlə təmizlənmə stansiyaları, ölçmə, kompressor stansiyaları və digər infrastruktur daxildir.

Kəmərin inşası layihəsi üzrə sənədlər paketi 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb. TANAP "Mərhələ-2" çərçvəsində "Şahdəniz" yatağından hasil edilən Azərbaycan qazının Gürcüstan-Türkiyə sərhədindən Türkiyənin qərb sərhədlərinə qədər nəqli üçün nəzərdə tutulub. Qaz kəmərinin ötürmə qabiliyyəti ən azı 16 mlrd. kubmetr təşkil edəcəyi ehtimal olunur. Bu həcmin 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri Türkiyənin qərb regionlarına göndəriləcək.SOCAR-ın qiymətləndirmələrinə əsasən, 2023-cü ildə kəmərin gücü 23 mlrd. kubmetr, 2026-cı ildə isə 31 mlrd. kubmetrə çatdırılacaq. Eyni zamanda, TANAP-ın genişləndirilməsindən sonra Azərbaycanda digər yataqlardan, o cümlədən başqa ölkələrdən hasil edilən qaz mənbə kimi istifadə olunacaq.

Layihə $10 mlrd. dəyərində qiymətləndirilir. TANAP layihəsində şirkətlərin iştirak payı aşağıdakı kimidir: SOCAR – 58%, BP – 12%, BOTAS – 30%.


Binəqədi Rayon İcra Hakimiyyətinin

Sakinlərin Müraciət Xidməti




Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!

www.binegedi-ih.gov.az


# Elektron valyutadəyişmə bankomatları istifadəyə veriləcək?



Azərbaycan valyutadəyişmə sahəsində yeni sistem tətbiq edilə bilər.

Maliyyə Bazarlarına Nəzarət Palatasından verilən xəbgərə görə, Azərbaycan Banklar Assosiasiyası (ABA) elektron valyutadəyişmə bankomatlarının tətbiq edilməsi ilə bağlı Palataya müraciət edib:

"Maliyyə bazarlarında hər bir yenilik, müasirlik Palata tərəfindən müsbət qarşılanır. Palatanın məqsədi odur ki, ilk növbədə günün istənilən saatında, bayram günlərində əhali rahat şəkildə valyuta mübadilələrini həyata keçirə bilsin. İkincisi, Azərbaycanda turizm sahəsi ildənilə inkişaf edir və ölkəyə gələn turistlərin, qonaqların sayı ilbəil artır.

Aydındır ki, turistlər səfər zamanı xarici valyutaları milli valyutaya çevirmək istəyir. Əhali ilə yanaşı, turistlərin problemlə üzləşməməsi, xoşagəlməz halların baş verməməsi üçün mükəmməl, müasir bir sistem qurmaq və istifadəyə vermək Palata tərəfindən müsbət qarşılanır".

Palatadan bildirilib ki, texniki məsələlər həllini tapandan sonra ölkədə elektron valyutadəyişmə bankomatlarından istifadəyə başlanılacaq.

Xatırladaq ki, bir qədər əvvəl mətbuatda ABA-nın Azərbaycanda valyuta-dəyişmə məntəqələrinin fəaliyyəti bərpa edilməsi ilə bağlı Maliyyə Bazarlarına Nəzarət Palatasına müraciət etməsi və konkret təkliflərlə çıxış etməsi ilə bağlı məlumatlar yayılıb.

Məlumata əsasən, təkliflərdə həm banklara məxsus məntəqələrin bərpası, həm də yeni tipli valyuta məntəqələrinin açılması əksini tapıb. Belə ki, ABA-nın sədri Zakir Nuriyev bildirib ki, Palataya banklara məxsus valyutadəyişmə məntəqələrinin fəaliyyətinin bərpası ilə yanaşı, valyuta ticarətini müstəqil formada həyata keçirəcək hüquqi şəxslərin yaradılması üçün hüquqi bazanın formalaşdırılması təklif olunub. Təkliflər arasında otellərin valyuta mübadiləsi aparması üçün lisenziyalaşdırılması məsələsi də var.

# Dünya birjalarında neftin qiyməti sürətlə artır

Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,29 dollar artaraq 44,47 dollar təşkil edib.

ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri 0,32 dollar artaraq 46,12 dollar olub.

İlk öncə qeyd edək ki, Brent neftinin qiyməti ötən ilin dekabr ayından etibarən ilk dəfə olaraq 45 dolları ötüb. 40%-dək azalmasına səbəb olub: "Bu hal daha çox ABŞ, Kanada, Latın Amerikası və Rusiyada müşahidə olunur. Bu il biz gündəlik 700 min barrel neftin hasil olunmasını gözləyirik ki, bu, son 25 ildə rekord dərəcədə aşağı göstəricidir. Bununla yanaşı, Hindistan, Çin və digər inkişaf etməkdə olan ölkələrdə tələb artır".

Məhz bu hesabat və bəyanatdan sonra neftin qiymətində artım müşahidə olunmağa başlayıb.



Neftin kəskin bahalaşmasına Beynəlxalq Enerji Agentliyinin açıqladığı hesabat səbəb olub. Agentliyin hesabatında bildirilir ki, 2016-cı ildə OPEC-ə üzv olmayan ölkələrdə neft hasilatı rekord dərəcədə aşağı düşəcək. Hesabat müəllifləri hesab edir ki, bu, bazarda balans yaradacaq.

Agentliyin rəhbəri Fatih Birol qeyd edib ki, neftin qiymətinin aşağı olması son iki ildə investisiyaların

Bununla yanaşı, ABŞ-da neft ehtiyatlarının həcminin gözləniləndən daha az olması birjaları canlandırıb. ABŞ-da neft ehtiyatları ilə bağlı açıqlanan məlumatlar da "qara qızıl"ın bahalaşmasına səbəb olan ikinci əsas amil kimi göstərilir. Belə ki, proqnozlara görə, ABŞ-da neft ehtiyatları 2,4 mln. barel artmalı idi. Amma bu ölkədə neft ehtiyatları gözləniləndən 0,3 mln. barel az, yəni 2,1 mln. barel artıb.